**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**ÜZEYİR HACIBƏYLİ ADINA**
**BAKI MUSİQİ AKADEMİYASI**

*Əlyazması hüququnda*

**AYTAC ELXAN QIZI RƏHİMOVANIN**

# ŞİFAHİ ƏNƏNƏLİ AZƏRBAYCAN MUSİQİSİNİN JANRLARARASI VƏ BƏDİİ ƏLAQƏLƏRİ

6213.01 – Musiqi sənəti

Sənətşünaslıq üzrə elmlər doktoru elmi dərəcəsini
almaq üçün təqdim olunmuş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2015**

*Dissertasiya işi Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının "Musiqi nəzəriyyəsi" kafedrasında yerinə yetirilmişdir.*

**Rəsmi opponentlər: Ramiz Fərzulla oğlu Zöhrabov**
*Azərbaycan Respublikasının Xalq Artisti,*
*sənətşünaslıq üzrə elmlər doktoru, professor*

**İradə Tofiq qızı Köçərli**
*sənətşünaslıq üzrə elmlər doktoru, dosent*

**Oqtay Məmmədağa oğlu Rəcəbov**
*Azərbaycan Respublikasının əməkdar müəllimi, Rusiya pedaqoji və sosioloji elmlər Akademiyasının həqiqi üzvü, pedaqogika üzrə elmlər doktoru, professor*

**Aparıcı təşkilat:** Azərbaycan Dövlət Pedaqoji Universitetinin «Musiqi fənləri və musiqinin tədrisi metodikası» kafedrası.

Müdafiə «17_»_02__________ 2015-ci ildə saat $12^{00}$ -da Bakı Musiqi Akademiyasının nəzdində yaradılmış F/D 02.151 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1014, Bakı şəhəri, Şəmsi Bədəlbəyli küç., 98.

Dissertasiya ilə Bakı Musiqi Akademiyasının kitabxanasında tanış olmaq olar.

Avtoreferat «___» noyabr 2014-cü ildə göndərilmişdir.

Dissertasiya şurasının elmi katibi,
Sənətşünaslıq üzrə fəlsəfə doktoru **Məmmədova H.V.**

# DİSSERTASİYANIN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı**. Azərbaycan musiqi elminin aktual və əhəmiyyətli problemlərindən biri də xalq musiqi mədəniyyətinin öyrənilməsidir. Azərbaycan xalq musiqisinin milli xüsusiyyətləri tarixi inkişaf nəticəsində meydana gəlmişdir. Tarixin hər bir dövrü Azərbaycan musiqi xəzinəsində dərin izlər buraxmışdır. Azərbaycan musiqi incəsənətinin fəaliyyət göstərdiyi bədii kontekst isə, bu tarixi prosesdə əsas həlledici rol oynayır. Məhz o, bir-biri ilə ierarxik tellərlə bağlı, möhkəm əlaqələrə malikdir.

Azərbaycan musiqisinin «simasını», ümumi Azərbaycan incəsənəti sistemi, qonşu ölkələrlə mədəni əlaqələr və Azərbaycan musiqisinin özündə gedən fəal proseslər təyin etmişdi.

Bu gün, Azərbaycan musiqi folkloristikasının elmi potensialını ümumiləşdirmək məsələsi, artıq bir zəruri hal kimi qəbul edilməlidir. Belə labüdlük təkcə bu potensialın mövcud olmasından irəli gəlmir. Azərbaycan xalq musiqisi tarixən formalaşmış sabit xüsusiyyətlərə malikdir. Qətiyyətlə deyə bilərik ki, xalq musiqimiz parlaq və bənzərsizdir.

Hal-hazırda, bədxah «qonşularımızın» fəaliyyəti fonunda belə araşdırmaların aktuallığı daha da artmışdır. Onlar utanmadan xalq musiqimizin gözəl incilərini bir-bir erməniləşdirməyə çalışaraq, bədii sərvətlərimizə əl atırlar. Buna görə də biz, bu incilərin məhz Azərbaycan xalq musiqisinə aid olduğunu göstərmək üçün onların, Azərbaycan xalq musiqisinin milli mentalitetinə məxsus olan spesifik təkrarolunmaz xüsusiyyətlərini elmi surətdə sübuta yetirməliyik.

Beləliklə, müasir mədəni proseslər, elmi işlərin tematikasını diktə edərək, yeni araşdırmaların meydana çıxmasına təkan verir.

Şifahi ənənəli Azərbaycan musiqisinin milli özünəməxsusluğu tədricən formalaşmışdır. Bu formalaşma dünyagörüşü ilə, psixoloji amillərlə, iqlimlə, temperamentlə və s. səbəblərlə birbaşa bağlıdır. Təbii ki, belə bir tədqiqat mövzusunu seçərkən mövzunu konkretləşdirmək naminə qarşıya müəyyən vəzifələr qoymuşuq. Biz tədqiqatımızda yer alan əsas aspektlər üzərində dayanmaq istərdik ki, bu da aşağıdakılardan ibarətdir:

- Musiqi mədəniyyətimizin millətlərarası əlaqələri;
- İncəsənətin növlərinin qarşılıqlı əlaqələri;
- Azərbaycan xalq musiqisinin janrlarının qarşılıqlı əlaqələri:

Məhz bu bədii əlaqələr, şifahi ənənəli Azərbaycan musiqisinin inkişafında və onun milli xüsusiyyətlərinin təşəkkülündə müəyyənedici rol oynamışdır.

Qeyd etməliyik ki, Azərbaycan musiqi folkloristikasının ümumi həll olunmamış problemləri yetərincə çoxdur. Belə ki, musiqi folklorunun nota salınması sahəsindəki iş son zamanlar passivdir, bununla yanaşı, musiqi folklorunun sosioloji, psixoloji, psixofizioloji əsasları öyrənilmir. Genezis, etnomədəni koordinatlar, obraz sisteminin əsasları və s. diqqətdən kənarda qalmışdır.

Bu baxımdan, təqdim olunmuş tədqiqatın aktuallığını daha bir amil də müəyyən edir. Xalq musiqisi bir yerdə donub qalan, müəyyən zaman xaricində mövcud olan bir məfhum deyildir. Xalq musiqisi iqtisadi, siyasi, ideoloji, sosial və mənəvi amil dəyişiklərinin təsirinə məruz qalan bir sənətdir. Bunu sübut etmək üçün bu gün səslənən bayağı pop musiqisinə nəzər yetirmək kifayətdir. Buna görə də Azərbaycan xalq musiqisinin «qızıl fondunun» saxlanılması problemi ən yüksək səviyyədə həll edilir, ölkənin birinci şəxsləri tərəfindən mühafizə olunur. Dövlət başçımız cənab İlham Əliyev və ölkəmizin birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban Xanım Əliyevanın Azərbaycan muğamının qorunub saxlanılması yolunda apardıqları titanik işi xüsusi ilə qeyd etmək lazımdır.

Bütün bu dediklərimizə bir daha əlavə olaraq qeyd etmək istərdik ki, şifahi ənənəli Azərbaycan musiqisinin öyrənilməsi, xüsusi ilə də bu gün, XXI əsrin əvvəlində toplanılan spesifik və təkrarolunmaz xüsusiyyətlərin tədqiq edilməsi olduqca aktual məsələdir. Çünki, real həyat daima mədəniyyətə, xalq musiqisinə öz təsirini göstərir.

Beləliklə, tədqiqat işimizin ən ümdə məsələsi və əsas vəzifəsi Azərbaycan musiqi mədəniyyətinin tarixi inkişafında, bədii proseslərin vəhdətinə istinad edərək, apardığımız araşdırmalar nəticəsində ümumiləşdirmələri aşkar etməkdən ibarətdir.

Xalq musiqisinin öyrənilməsinin aktuallığı, hər zaman canlı başlanğıc, əsas mənbə olan bizim bu günümüzü və gələcəyimizi müəyyənləşdirən xalq mədəniyyətindən irəli gəlir. Azərbaycan xalqının mənəvi irsinin tarixi abidələri, müasir milli musiqi mədəniyyətinin formalaşmasında aktiv amillərdən biridir. Bizim tarixi mənbələrimizə qayğı ilə yanaşmağımız onun qorunmasına təminat verir və ümumilikdə cəmiyyətimizin mədəni səviyyəsinin göstəricisi kimi çıxış edir. Öz keçmişinə hörmətlə, ləyaqətlə yanaşma, ilk növbədə onu qorumaqda,

populyarlaşdırmaqda və əlbəttə ki, tarixi və nəzəri tədqiqatlar aparmaqda öz əksini tapır.

Milli spesifika, özünəməxsusluq – ilk növbədə hər hansı bir xalqın musiqisində təyin olunmuş sabit cizgilərdir. Həm də sadəcə sabit cizgilər yox, dominantlıq təşkil edən cizgilərdir. Azərbaycan musiqisi bir sıra tipoloji xüsusiyyətlərə malikdir. Bunlar da Azərbaycan musiqisinin spesifikliyini xarakterizə edir.

Milli xarakter anlayışı, hər hansı bir millətə xas olan sabit xüsusiyyətlərə istinad etməni nəzərdə tutur. Üstünlük təşkil edən cizgilər, milli xarakterə xas olan cizgilər kimi qiymətləndirilir. Milli spesifik cizgilər, ümumdünyagörüşü, davranışı və təfəkkürü kimi formalaşır. Milli spesifikliyi, bir xalqın mədəniyyətini digər xalqın mədəniyyətindən ayıran xüsusi keyfiyyətlərin vəhdəti fərqləndirir.

Lakin dissertasiyanın əsas vurğusu Azərbaycan xalq musiqisinin janrlararası əlaqələrinin tipoloji modellərindən ibarətdir. Bu tədqiqatın əsas məqsədi Azərbaycan xalq musiqisində janrlararası əlaqələrə həsr olunaraq, Azərbaycan xalq musiqisinin vəhdətini araşdırıb meydana çıxarmaqdan ibarətdir. İlk növbədə musiqi dilinin bütövlüyü, vahidliyi, forma və məzmunu milli – özünəməxsus dünyagörüşünün yetkinliyini xarakterizə edir.

Xalq musiqisinin vəhdətini arqumentləşdirdikdə biz, formaların orijinallığını təmin edən digər janr vasitələrini də təqdim edirik.

Onu da qeyd etməliyik ki, Azərbaycan alimlərinin bir sıra sanballı tədqiqat işlərinin olmasına baxmayaraq, janrlararası sistemə həsr olunmuş ayrıca iş hələ ki, yoxdur. Geyd edək ki, belə bir işin aktuallığı çox böyük elmi ədəbiyyatın potensialı ilə əsaslana bilər.

Bu gün ölkəmizdə xalq musiqisi haqqında o qədər çoxlu və ciddi material toplanıb ki, artıq şifahi ənənli Azərbaycan musiqisinin janrlararası əlaqələrinin klassifikasiyası haqqında elmi fikir söyləməyin vaxtı çatmışdır. Bütün bunlar dissertasiya mövzusunun aktuallığını şərtləndirir.

**Mövzunun işlənmə dərəcəsi**. İrəli sürülən problemlərin əsası, Ü.Hacıbəylinin tədqiqatlarında qoyulmuşdur. Onun dahiyanə "Azərbaycan xalq musiqisinin əsasları"[1] əsəri Azərbaycan xalq musiqisinin sistematik təhlilinin özəyi olmuşdu.

---

[1]Hacıbəyov Ü.Ə. Azərbaycan xalq musiqisinin əsasları. Dördüncü nəşr. B.: 1985, 154 s.

Ü.Hacıbəylinin parlaq davamçılarından biri, M.İsmayılov olmuşdur. Azərbaycan xalq musiqisinin bütün janrlarını əhatə edən, təsnifatlı sistemin yaradılması məhz ona aiddir.[2] Azərbaycan musiqisinin əsas janrlarının səciyyəvi cəhətlərinin dəqiq açıqlanmasıyla yanaşı, M.İsmayılov Ü.Hacıbəylinin ideyalarını davam etdirərək, Azərbaycan xalq musiqisinin əsaslarına aid öz nəzəri fikirlərini yürütmüşdür. Azərbaycan ladlarının qohumluq əlaqələri, modulyasiya və yönəlmə sistemində alterasiya məsələsi və ş. kimi sualların açıqlanması M.İsmayilova aiddir.[3]

Ritm, intonasiya problemləri E.Babayevin elmi əsərlərində işıqlanır. İlk dəfə, məhz E.Babayevin "Azərbaycan muğam dəstgahlarıda ritmintonasiya problemləri" [4] əsərində xalq musiqisinin tədqiqində ritmintonasiya aspektinin rolu və problemi qoyulmuşdur.

Azərbaycan xalq musiqisinin parlaq tədqiqatçılarından biri R.Zöhrabovdur. Onun saysız elmi əsərləri müasir etnomusiqişünaslığının fundamentini təşkil edir.[5]

Z.Səfərovanın elmi irsi xüsusi əhəmiyyət kəsb edir. Alim orta əsr risalələrini tədqiq və təhlil edərək, Azərbaycan xalq musiqisinin qədim nümunələrini yenidən yaratmış, restavrasiya etmişdir. Z.Səfərova Azərbaycan xalq musiqisinin tədqiqində böyük xidmətlərə malikdir. Məhz o, Azərbaycan xalq musiqisinin tarixinin yaradıcılarından olmuşdur.[6]

Azərbaycan xalq musiqisinin tədqiqində böyük əməyi olan tədqiqatçılardan biri də, S.Abdullayevadır.[7] Onun Azərbaycan milli musiqi alətlərinə həsr etdiyi tədqiqatları Azərbaycan xalq musiqisinin bir çox əhəmiyyətli xüsusiyyətlərini, qanunauyğunluqlarını açıqlayır. Müəllifin elmi əsərlərində sübut olunmuşdur ki, Azərbaycan alətşünaslığı,

---

[2] İsmayılov M.C. Azərbaycan xalq musiqisinin janrları. Yenidən işlənilmiş və tamamlanmış nəşr. B.: İşıq, 1984, 100 s.

[3] İsmayılov M.C. Azərbaycan xalq ladlarının qohumluq münasibətləri haqqında. // Ü.Hacıbəyov ad. Azərbaycan Dövlət Konservatoriyasının Elmi əsərləri, 1972, № 9, s. 5-43.

[4] Babayev E. Azərbaycan muğam dəsgahlarıda ritmintonasiya problemləri. - Bakı: Ergün 1996. - s. 126.

[5] Zohrabov R.F. Muğam. B.: Azərnəşr, 1991, 219 s.

[6] Səfərova Z. Azərbaycan musiqi elmi (XIII-XX əsrlər). - Bakı: Elm, 1998. - 116 s.

[7] Abdullayeva S.A Azərbaycan xalq çalğı alətləri (musiqişünaslar - orqanoloji tədqiqat). - Bakı: Adiloğlu, 2002. - 453 s.

Azərbaycan xalq musiqisi tədqiqinin əhəmiyyətli və ayrılmaz hissəsini təşkil edir.

Azərbaycan xalq musiqisi tarixinə müraciət etməklə, Azərbaycan xalq musiqisinin tədqiqində mühüm qanunauyğunluqları açıqlamağa imkan yaranır. Belə ki, orta əsr risalələrinin tədqiqinə S.Ağayevanın həsr etdiyi əsərlər, Azərbaycan xalq musiqisinin xüsusiyyətlərindən danışmağa imkan yaradır.[8]

Aşıq yaradıcılığının tədqiqində Ə.Eldarovanın[9] və T.Məmmədovun[10] böyük xidmətləri vardır. Onların elmi əsərlərində aşıq sənəti sistematik formada acıqlanıb. Burada həm tarixi həm də nəzəri aspektlər eyni dərəcədə açıqlanmışdır. Aşıq yaradıcılığına K.Dadaşzadə və İ.Köçərli də öz elmi əsərlərini həsr etmişdilər.

Azərbaycan muğamının tədqiqatçıları da Azərbaycan xalq musiqisinin təhlilinə böyük töhfələr vermişdirlər. Onların arasında E.Babayev, R.Məmmədova, S.Bağırova, Ş. Həsənova, S. Fərhadova, C.Həsənova, A.Quliyevin adlarını çəkə bilərik.

Azərbaycan xalq musiqisinin ayrı götürülmüş janrlarına S.Seyidova kimi alimlərin əsərlərində rast gəlirik. Belə ki, S. Seyidovanın mərasim musiqisinin tədqiqinə həsr etdiyi elmi əsərlər musiqişünaslığımıza xüsusi qatqı gətirmişdir. Mərasim musiqisi S.Fərhadovanım elmi işində, Naxçıvan yallıları Ə.Ələkbərovanın işlərində araşdırılmışdır.

Eləcə də F.Xalıqzadənin, T.Kərimovanın, S.Qafarovun tədqiqat və xalq musiqisinin toplanılmasında gördükləri işləri qeyd etmək lazımdır.

Azərbaycan xalq musiqisinin ayrı-ayrı nəzəri aspektlərinə G.Mahmudovanın, E.Dadaşovanın elmi işləri həsr olunmuşdur. Belə ki, G.Mahmudova Azərbaycan musiqisində ostinatlıq, E.Dadaşova isə xalq musiqisində melodik modulyasiyalara həsr olunmuş elmi işlər yazmışdılar.

Azərbaycan etnomusiqişünaslığının tarix və nəzəriyyəsinə H.Adıgözəlzadənin elmi araşdırmaları həsr olunmuşdur.

---

[8] Агаева С. Абдулгадир Мараги и его музыкально-теоретическое наследие: Автореф. дисс. на соиск. учен. степени канд. искусствоведения. - М., 1979. - 20 с.

[9] Eldarova Ə.M. Azərbaycan aşıq sənəti. B.: 1986, 166 s.

[10] Мамедов Т.А. Традиционные напевы азербайджанских ашыгов. - Баку: Ишыг, 1988. - 350 с.

Azərbaycan xalq musiqisinin digər xalqların mədəniyyətləri ilə muqayisəli təhlil prosesinin nəticəsində əhəmiyyətli və maraqlı xüsusiyyətlər meydana gəlir. Məsələn, R.Məmmədovanın bəzi əsərləri Türk musiqisinin təhlilinə həsr edilib. Azərbaycan xalq musiqisinin təhlili, rus musiqişünaslarının tədqiqatları aspektində, E.Hüseynovanın elmi əsərlərində öz əksini tapmışdır.

**Tədqiqatın elmi yeniliyi**. Dissertasiya işinin yeniliyi ondan ibarətdir ki, təqdim olunan əsər, məxsusi olaraq, janrlararası əlaqələr, reqionlararası və növlərarası əlaqələr səviyyəsində Azərbaycan xalq musiqisinin bədii əlaqələri probleminə həsr olunmuş ilk tədqiqat işidir.

Aşağıdakı məsələlər ilk dəfə tədqiq edildiyindən, bu müddəaların hər biri dissertasiyanın elmi yeniliyi sayıla bilər:

1. Xalq musiqisinin, janrlararası təsir fokusundan araşdırılması probleminin qoyuluşu;

2. Azərbaycan incəsənətinin bütün morfoloji səviyyələrdə paritet olan vahid funksional başlanğıcının araşdırılması;

3. Azərbaycan xalq musiqisi, yalniz hər hansı bir struktur parametrlərinə və fəaliyyətinə malik olan konkret tarixi təzahür kimi deyil, həm də Azərbaycan milli musiqi üslubunun spesifikliyini əks etdirən bir ümumiləşdirici fenomen kimi tədqiq olunması.

**Tədqiqatın metodoloji əsasları.** Şifahi ənənli Azərbaycan musiqisinin təhlilini apardıqda, dissertasiya işimizdə əsas metod olaraq vahid təhlil metoduna istinad etməyi məqsədəuyğun bildik. Məhz vahid təhlil metodu xalq musiqisinin vəhdətini, birliyini tədqiq etməyə imkan yaradır.

Dissertasiya işimizin kontekstində əhəmiyyətli metodlardan biri, müqayisəli-tipoloji metod hesab oluna bilər. Belə ki, müqayisəli janrlararası təhlildə məhz janr tipoloqiyaları və determenantları, janrlararası qarşılıqlı əlaqələrin dərəcəsini müəyyənləşdirməyə imkan yaradır.

Dissertasiya işində daha bir metoddan da istifadə etmişik o da müqayisəli genetik təhlili metodudur. Bu metoddan etnoqenetik kateqoriyaların əsas fəaliyyətini izləmək ücün istifadə etmişik.

Azərbaycan xalq musiqisini tədqiq edərkən biz, Azərbaycan etnomusiqişünaslarının elmi işlərindən istifadə etmişik, onlara arxalanmışıq. Təhlil Azərbaycan nəzəri elmi fikirlərin nailiyyətlərinə əsasən aparılıb. Azərbaycan alimləri tərəfindən Azərbaycan xalq musiqisinin əsas qaydaları, əhəmiyyətli qanunauyğunluqları araşdırılmış, formalaşdırılmış və ardıcıl qorunmuşdur. Onların elmi işlərində Azərbaycan xalq musiqisinin müəyyən

səciyyəsi, əhəmiyyətli elmi postulat mənasını və keyfiyyətini almağa başladı. Azərbaycan musiqişünasları tərəfindən musiqi elminin nəzəri bazası yaradılmışdır.

XX əsrdə Azərbaycan musiqi elminin nəzəriyyəsinin əsası dahi Üzeyir Hacıbəyli tərəfindən işlənilmişdir. Onun "Azərbaycan xalq musiqisinin əsasları" adlı məşhur əsəri Azərbaycan xalq musiqisinin sistematik təhlilinin əsasını qoydu.

Ə.Bədəlbəylinin "İzahlı manoqrafik musiqi lüğəti" əsəri təqdim etdiyimiz tədqiqatın terminoloji əsasını təşkil etmişdir.

Dissertasiyamızda E.Babayevin elmi əsərlərinə və ritm intonasiya haqqındakı fikirlərinə müraciət etmişik.

Z.Səfərovanın Azərbaycan musiqi tarixinə həsr olunmuş əsərləri dissertasiya işimizin tarixi metodoloji əsasını təşkil etmişdir.

Xalq musiqisinin tədqiqi problemlərinə, Azərbaycan muğamının tədqiqatçıları olan – R.Məmmədova, S.Bağırova da müraciət etmişdilər.

Azərbaycan xalq musiqisinə R.Zöhrabovun, Z.Səfərovanın, S.Seyidovanın, S.Fərhadova, T.Kərimova və s. musiqişünasların əsərləri həsr olunmuşdur.

Dissertasiyanın metodologiyalarından biri də, rus alimi B.Asafyevin elmi konsepsiyasına əsaslanır. Hazırki dissertasiya sözsüz ki, nəzəri xarakter daşıyır. Amma burada tarixi metoddan istifadə etmək, fikrimizcə, tədqiqatın hüdudlarını genişləndirməyə imkan yaradır. Məsələn, biz Azərbaycan xalq musiqisinin bədii əlaqələrinin təhlilini təkcə spesifik janrlararası aspektdə ifadə etmirik, eyni zamanda onun təkamülünü də göstərə bilirik. Belə yanaşma, bu əlaqələri, mərasim musiqisindən – şifahi ənənəli professional musiqiyədək tarixi aspektdə gözdən keçirmək imkanı yaradır. Beləliklə, burada etnomusiqişünaslıqda məşhur metod olan «sadədən mürəkkəbə» doğru prinsipi tətbiq olunur.

Biz də təhlil zamanı ideyanın açılmasında sadədən mürəkkəbə doğru hərəkəti göstərməyə çalışmışıq. Bu aşağıdakı təhlillər əsasında mümkün oldu:

1. Ladfunksional mürəkkəbləşmə prinsipi;

Məsələn: İstinad pilləsi ətrafında gəzişmədən, tonik mənalı istinad pilləsi ətrafında gəzişməyə keçərək, ən sonda bu sabit pillələr sisteminin muğamda öz əksini tapması.

2. Melodik mürəkkəbləşmə;

Burada iki aspekti qeyd edək.

a) bir melodik dayaq ətrafında “dolandıqdan”sonra – sekvensiya, kompleks gəzişmələr kimi sistem «bloklarına» keçid;

b) hər hansı bir çətinlikdə olan ilkin melodiyalar modelindən törəmələr.

3. Struktur mürəkkəbləşmələri: motivdən – iki hissəli kuplet formasına və ardı- arası kəsilməyən sərbəst formaya keçid.

Beləliklə, bizim dissertasiyada şifahi ənənəli Azərbaycan musiqisinin bədii əlaqələrinin bir neçə fəaliyyət aspektləri açıqlanır:

1. Ümumi – Azərbaycan xalq musiqisinin vahid sistemi, bir varlıq kimi;

2. Morfoloji – Azərbaycan xalq musiqisinin təsnifatı;

Burada biz Azərbaycan xalq musiqisinin ən tanınmış klassifikasiya metodlarından istifadə edərək, ən sabit, təməl formalarını aşkar etmişik. Məhz bu formalar, Azərbaycan xalq musiqisinin əsrlər boyunca yaşamasına və mövcud olmasına rəvac vermişdir. Demək olar ki, bu sistem zəncirində bir bəndi sildikdə bütün sistem yox olardı.

3. Xüsusi aspekt;

Bu aspekt Azərbaycan xalq musiqisinin spesifik xüsusiyyətlərini əks etdirir.

4. Struktur-funksional aspekt. Azərbaycan musiqisinin təməlini, yəni onun struktur xüsusiyyətlərini, təhlil edib üzə çıxarmışdır.

Qeyd edək ki, Azərbaycan musiqi elmində ümumiləşdirici xarakter daşıyan tədqiqat işləri çox azdır. Bununla yanaşı, bizim bu gün Azərbaycan milli musiqi üslubunun özünəməxsusluğunu aydınlaşdırmaq üçün məhz konseptual yanaşmaya böyük ehtiyacımız var. Təqdim olunmuş disertasiya işi fikrimizcə, Azərbaycan xalq musiqisinin qlobal və kontekst statusunda tədqiqinin ilk addımlarındandır. Dissertasiyanın paradiqması ənənəvi analitik meyarlara arxalanır. Bizim fikrimizcə, Azərbaycan xalq musiqisinin mürəkkəb morfoloji aspektlərini, fundamental, klassik əlaqələr bazasında tədqiq etmək daha məqsədəuyğundur.

Bizim əsas vəzifəmiz Azərbaycan xalq musiqisinin bədii əlaqələrinin real imkanlarını və inkşaf sərhədlərini müəyyən etməkdən ibarətdir. Bu mənada, sözsüz ki, təqdim olunmuş tədqiqat işində müqayisəli təhlilin rolu aktualdır. Belə tipli müqayisələrdə qeyri-bərabərlik, mərhələlik, Azərbaycan xalq musiqisinin bədii əlaqələrinin dinamikası xüsusi qeyd edilir.

Azərabaycan musiqisində müqayisəli təhlilidən danışarkən son iyirmi ildə bu mövzunun aktuallığını qeyd etmək lazımdır. Burada ilk

növbədə, metodologiyanın təkmilləşdirilməsi, mədəniyyət və incəsənət təzahürlərinin öyrənilməsi aspektinin dərinləşməsi, təhlil olunan materialın arealının genişləndirilməsi və s. öz əksini tapır.

Azərbaycan xalq musiqisində aprobasiya olunmuş müqayisəli təhlil parametrləri yeni elmi konsepsiyaların yaranmasına eləcə də müqayisəli təhlilin yeni istiqamətlərinin yaranması problemin dərindən öyrənilməsinə, xüsusilə də bizim «Şifahi ənənəli Azərbaycan musiqisinin janrlararası və bədii əlaqələri» mövzumuzun optimal şəkildə tədqiqinin həyata keçirməsinə şərait yaradır.

İndi isə bilavasitə bizim problemin Azərbaycan musiqi elmində işlənmə dərəcəsinə müraciət edək.

Azərbaycan xalq musiqisinə üç əsas yanaşma mövcuddur.

1) Struktur-analitik;

Bu yanaşma analitik quruluşu ilə, təsnifat ideyaları ilə, Azərbdaycan xalq musiqisinin obyektlərinin janr-differensasiyalı araşdırmaları ilə fərqlənir.

2) Müqayisəli-tipoloji;

Azərbaycan xalq musiqisini, digər musiqi mədəniyyətləri ilə müqayisə etmə nöqteyi-nəzərindən araşdırılır. Burada ilk növbədə musiqi mədəniyyətləri arasında ümumi və fərqli cəhətlər araşdırılır, habelə, Azərbaycan xalq musiqisinin milli spesifikliyi müəyyən edilir.

3) Tarixi yanaşma.

Burada, Azərbaycan xalq musiqisinin tarixini əks etdirən, yazılı mənbələrə həsr olunmuş işləri nəzərimizdə tuturuq. Burada ilk növbədə Z.Səfərovanın elmi fəaliyyətini qeyd etmək istərdim.

Sözsüz ki, bu elmi əsərlərin bir çoxu Azərbaycan musiqi elminə böyük töhfələr vermişlər, bir çoxu tədqiqatçıların stolüstü kitablarına çevrilmişlər.

**Tədqiqatın məqsədi.** Təqdim edilən dissertasiya işində əsas məqsəd- şifahi ənənəli Azərbaycan musiqisinin bədii əlaqələrinin öyrənilməsidir.

**Tədqiqatın qarşıya qoyduğu vəzifələr**:

1. Şifahi ənənli Azərbaycan musiqisinin janr əlamətlərini xarakterizə etmək. Hər janrın spesifik xüsusiyyətini açmaq;

2. Şifahi ənənəli Azərbaycan musiqisinin janrlararası əlaqələrinin əsası kimi janrların universiallığını tədqiq etmək;

3. Müəyyən janrların müqayisəli təhlilini aparmaq;

4. Azərbaycan musiqi nəzəriyyəsi sistemində Yaxın Şərq elmi fikrinin rolunu göstərmək;

5. Azərbaycan musiqisinin bədii əlaqələrində mərkəzlik, dominantlıq təşkil edən lad strukturunu açıqlamaq;

6. Azərbaycan incəsənətinin xalq musiqi mədəniyyəti ilə vahid funksional məzmununu ortaya qoymaq;

7. Azərbaycan musiqisinin əsas bədii strukturlarının qanunauyğunluqlarını təyin edən əlaqələri tapmaq.

**Dissertasiya işinin obyekti** Şifahi ənənli Azərbaycan musiqisi, **predmeti** isə şifahi ənənəli Azərbaycan musiqisinin bədii əlaqələridir.

**Tədqiqatın materialı**. Dissertasiya işində yetərincə böyük materialdan istifadə olunmuşdur. Tədqiqat Azərbaycan mədəniyyətinin tarixinə dair faktoloji materiallara istinad edərək aparılmışdır. Burada Azərbaycan incəsənətinin morfoloji xüsusiyyətləri, Azərbaycan xalq musiqisinin janr sisteminin təhlili verilmişdir. Sözsüz ki, tədqiqat işinə arxivlərdən tapılmış materiallar, müəllifin şəxsi şərhləri və s. cəlb olunmuşdur. Başqa sözlə, dissertasiyanın mənbələri geniş və çoxsaylıdır.

**Dissertasiyanin təcrübi əhəmiyyəti** haqqında aşağıdakıları deyə bilərik. Dissertasiyanın ayrı-ayrı müddəalarından Bakı Musiqi Akademiyasının «Azərbaycan xalq yaradıcılığı» və «Asiya və Afrika xalqlarının musiqisi» tədris kurslarında istifadə etmək olar. Həmçinin ölkəmizdə musiqi yönümlü digər ali təhsil ocaqlarında da (Azərbaycan Milli Konservatoriyası, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti, "Xəzər" universiteti) eləcə də xarici ölkələrin konservatoriyalarında əlavə dərs vəsaiti kimi istifadə olunması məqsədə uyğundur. Dissertasiya işinin materialı musiqi türkologiyasına, ərəb və türk xalqlarının musiqisinə həsr olunmuş tədqiqat işləri üçün xeyirli ola bilər.

Dissertasiya işimizin, Azərbaycan xalq musiqisinin qarşılıqlı əlaqələr, formayaradıcı xüsusiyyətlər və musiqi dili problemlərinə həsr olunmuş tədqiqat işlərində dəyərli mənbə olacağına ümüd edirik.

Dissertasiya işi, zənnimizcə Azərbaycan musiqisini təcrid olunmuş halda deyil, digər musiqi mədəniyyətləri ilə əlaqələrini və onun dünya miqyasında tutduğu mövqeyini izləyən tədqiqatçılar üçün də maraqlı ola bilər.

İşin praktiki əhəmiyyətini biz bir də onda görürük ki, Azərbaycan xalq musiqisinin, millətlərarası, janrlararası, incəsənət növləri arası

əlaqələrini tədqiq etməklə, təqdim etdiyimiz dissertasiyada milli musiqinin üslub yaradıcı ünsürləri haqda təsəvvür yarada bilirik.

**Dissertasiyanın aprobasiyası.** Dissertasiya Bakı Musiqi Akademiyasının "Musiqi nəzəriyyəsi" və "Azərbaycan xalq musiqisinin tarixi və nəzəriyyəsi" kafedralarında müzakirə olunmuşdur. Dissertasiyanın əsas məzmunu, onun ayrı-ayrı müddəaları müəllifin çap olunmuş məqalə və tezislərində öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, altı fəsil, nəticə, istifadə olunmuş ədəbiyyat siyahısı, notoqrafiya və əlavələrdən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** bölməsində mövzunun aktuallığı əsaslandırılır, onun elmi işlənmə səviyyəsi, elmi yeniliyi açıqlanır, tədqiqatın məqsəd və vəzifələri, metodoloji əsası, təcrübi əhəmiyyəti və s. müəyyənləşdirilir.

Dissertasiyanın birinci **fəsli "Şifahi ənənəli Azərbaycan musiqisinin janr sisteminin ümumiləşdirici universallığı"** adlanır.

Hər bir xalqın musiqi folklorunda, janr sisteminin vəhdəti problemi – incəsənətdə mövcud olan əhəmyyətli məsələlərdən birini təşkil edir. Burada söhbət bir janr sistemi daxilində mövcud olan müxtəlif növlü və tipli janrlar arasındakı köklü qohumluqdan, yəni onların bir-birinə qarşılıqlı təsiri nəticəsində yaranmış əlamətlərin hazırki əlaqələrindəndən gedir. Janrların bütöv, nizamlı, orqanik sistemi, onun dəyərini və uzunömürlülüyünü təyin edən həlledici amillərdəndir.

Məlum olduğu kimi, musiqi janrları, bir sıra meyarları özündə cəmləşdirən əsərlərin, tarixən yaranmış tipləri və növləridir. Bunları birləşdirən əsas meyarlar məzmunun xarakteri, ifanın şəraiti və üsulu, konkret həyati və sosial təyinatıdır. Bunun nəticəsində bu və ya digər janrların yetərincə stabil və səciyyəvi kompleks əlamətləri otraya çıxır. Bu kompleks tipik həyati kontekstin bir çox özəlliklərini özündə əks etdirir. İfadəli, mənalı, semantik imkanlara malik olan bu kompleks əsasında çox qəliz münasibətlər sistemi və xüsusi janr dramaturgiyası yaranır.

Bununla bərabər hər bir janr kateqoriyası, həm yalnız ona xas olan özünəməxsus qanunauyğunluqlara, həm də milli mədəniyyətin bütöv və ya bir çox janrlarında öz əksini tapmış ümumi qanunauyğunluqlara malikdir. Axırıncılar (bütün janrlar üçün ümumi olanlar) tez-tez unudulur, lakin janrların vahid sistem kimi ən əhəmiyyətli qarşılıqlı əlaqələri məhz

onlarda öz əksini tapır. Tədqiqatın əsasını, yalnız janrların spesifikliyini deyil, həmcinin folklorun yaranma tarixinin müxtəlif mərhələlərində, janrlararası əlaqələri xarakterizə etmək üçün istifadə olunan qanunauyğunlqların araşdırılması, sözsüz ki, elmi yanaşmanın yeni perspektivli səviyyəsini təqdim edir. Janr sisteminin vəhdəti, onun qapalı olması demək deyil.

Bu fəsildə biz, Azərbaycan xalq musiqisinə aid şərhlər veririk. Bu təhlil, bizim fikrimizcə, janr sisteminin, milli spesifikliyin dominant prinsiplərini araşdırıb üzə çıxarmaq aspektində həyata keçirilməlidir. Başqa sözlə desək, yalnız ciddi, stabil, sabit hətta mən deyərdim ki, kanonik qaydalar aspektində spesifikliyi aşkar etmək olar.

Milli mədəniyyətlərin inkişafı mütləq öz daxilində ənənə qanunlarının qəliz kompleksini birləşdirir. Başqa sözlə, keçmişdə yaranan və yığılanların əksəriyyətini öz tərkibində qoruyub saxlayır. Buna görə də hər bir janr sistemi – folklorun yalnız uzun tarixi inkişafının nəticəsi deyil, həm də genetik əlaqəli kompleksdir**.** Belə yanaşma bizim tədqiqat üçün çox önəmlidir, belə ki, Azərbaycan xalq musiqisinin janr sisteminin ümumi universallığının araşdırılması, öz tərkibində milli üslubun arxetiplərinin təyin olunmasını nəzərdə tutur.

Azərbaycan xalq musiqisinin janr sisteminin ümumi universallığının araşdırılmasında əsas təyinedici amil onun lad təşkilinin özəllikləridir.

Lad təşkili ilə melosun milli özünəməxsusluğunun cizgiləri çox sıx bağlıdır. Sözsüz ki, musiqi folklorunun müxtəlif janrlarının yaranmasında bütün ifadə vasitələri eyni dərəcədə iştirak edir. Onların hamısı vacibdir və hər biri məhz ona xas olan ifadəlilik və konstruktivlik funksiyası daşıyır. Lakin, məhz lad musiqi quruluşunun ilk növbədə emosional əhvali-ruhiyyəsinə, intonasiya və quruluş xüsusiyyətlərinə təsir edən faktora çevrilir.

V.Belyayev lad sistemini «səslərin tarixi ehtiyat yığımı» adlandırırdı. Həqiqətən də bu fikirdə lad evolyusiyasının əsas mənası öz əksini tapmışdır. Azərbaycan lad sistemində funksionallığın rolu çox böyükdür. Bu, həm melodik modelə arxalanma, həm pillələrin funksional əlaqələrinin əlavəsi, həm də kadensiya dönmələrinin sabitliyi deməkdir.

Musiqi quruluşunun tematizminin intonasiya genişlənməsinə, lad təşkilinin prinsipləri böyük təsir göstərmişdir. Bu mənada, Azərbaycan xalq musiqisinin hər bir ladına özünəməxsus tipoloji intonasiya dönmələri xasdır. Bunlar da təbii ki, bütün janrlarda özünü göstərir. Məsələn, rast

ladına tonik mərkəzin xüsusi qeyd olunması xasdır. Tonikanın aşağı kvartasından tonikaya, mediantadan tonikaya, onun yuxarı aparıcı tonuna edilən sıçrayışlarda, tez-tez xalis kvarta intervalı istifadə olunur.

Azərbaycan xalq musqisinin lad sistemi, Azərbaycan musiqi mədəniyyətinin uzun inkişaf prosesi nəticəsində yaranmışdır. Hər bir lad öz məna və emosional çalarlarına malik olaraq yalnız ona xas olan intonasiya «aura»sına malikdir. Həmçinin, hər bir Azərbaycan ladı öz təyin olunmuş kadensiya dövriyyələrinə malikdir. Tonik tamamlayıcı kadensiyalar, folklor quruluşunun tematizminin kristallaşması prosesində əhəmiyyətli rol oynayırlar. Azərbaycan musiqişünaslarının qeyd etdiyi kimi, burada «tamamlayıcı kadensiya dövriyyəsi- ilk növbədə ladintonasion mikroformuladır. O, intonasion və lad quruluşunun əsas əlamətlərində ifadə olunan milli başlanğıcın spesifikliyinin təzahürüdür»[11]. Nəticədə hər bir lad, daxilində tipik quruluş sistemi – ladın, xüsusi intonasiya model-indikatorları əmələ gəlir. İntonasiya modelləri xalq musiqisinin binövrəsini təşkil edir. Ladintonasiya prosesində mühüm funksiyanı daşıyaraq, onlar Azərbaycan folklorunun müxtəlif janrlarının yaranmasında, özül rolunu oynayırlar.

Janrların müxtəlifliyi Azərbaycan lad sisteminin tipoloji modellərinə arxalanır. Beləliklə, lad tipologiyalarının gerçəkliyi onun janrüstü təzahürüdür. Müxtəlif janr modifikasiyaları strukturu uzun əsrlər boyu formalaşan sabit özəyə arxalanır.

Azərbaycan xalq musiqisinin ümumi universallığını xarakterizə edən daha bir anlayış, intonasiya etmənin melodik tipləridir. Melodiya musiqinin elementi kimi həm dar, həm də geniş mənada anlaşıla bilər. Bu da onunla əlaqədardır ki, səslərin ardıcıllığındakı yüksəklik dəyişiklikləri iki amillə – lad əlaqələri və melodik şəkillə səciyyələnir. Bunlardan birincisi səslərin hər hansı bir ladtonallığının pillələri kimi, funksional məna daşıması ilə bağlıdır. İkincisi, hərəkətin istiqaməti və intervallar arasında məsafənin ölçüsündən asılı olan aspektdə, yüksəklik dəyişkənliyinin paylaşdırılmasını təyin edir.

Azərbaycan musiqisində ən vacib intonasiya tiplərindən biri özək mövzu və ya səs ətrafında gəzişmə tipidir. Gəzişmə zamanı mərkəzi səs, onu əhatə edən səslərlə müəyyən intonasiya əlaqəsi yaradır. Əhatə olunan mərkəzi səs sabit səsə çevrilir, onu əhatə edən səslər isə bu sabit səsə meyl

[11] Мамедова А.З. Музыкальные миниатюры Азербайджана. Баку: Элм, 1990, с. 97

edir. Bundan əlavə, melodik dayaqlar tədricən ladın istinad pərdələrinə çevrilməyə başlamışdır.

Qeyd etməliyik ki, Azərbaycan xalq musiqisi digər melodik intonasiya tipləri ilə, sekvensya, predyom, gəzişmə ilə genetik bağlıdır. Bəndlərin miniatürlüyü, onların arasında sezuraların praktiki yoxluğu, xalq musiqisində sekvensiyanın spesifikliyini səciyyələndirir. Sekvensiya, xalq musiqi təfəkkürünün əksi olub, o cümlədən vacib dramaturji faktların rolunu oynaya biləcək dərəcədə, müxtəlif məsələlərin həllinə qulluq edə bilir. Qeyd edək ki, Azərbaycan musiqisində sekvensiya adətən, aşağı hərəkətli olur. Qısa motivlər pilləvari aşağı hərəkət edərək, ümumi səlis sekvent xətt əmələ gətirir. Bu halda melodik hərəkət, öz dalğavariliyi ilə fərqlənir. Azərbaycan xalq musiqisində, sekventli inkişaf üsulu çox yayılmışdır. Çox zaman sekvensiya, bütün formanın mənaca tamamlayıcı, yekun, funksiyasını daşıyır.

Azərbaycan melodikasında səslərin qarşılıqlı təsirində vacib prinsiplərdən biri də «məsafəli predyomdur». Bu prinsipin əsas məğzi ondan ibarətdir ki, melodiyanın yeni, çox vaxt sabit səsinin ərsəyə gəlməsi, onun funksional «qonşu səslərinin» əhatəsində göstərilməsi ilə təzahür edilir. Belə çıxır ki, lazım olan səs artıq səslənib, lakin onun ətrafındakı intonasiya hərəkəti sabit səsin tam təsdiq olunmasına qədər davam edir. Bununla yanaşı, adi predyomdan fərqli olaraq, tamamlayıcı sabit səs öz predyomundan gəzişmə səsiylə ayrılır. Melodik məsafəli predyoma, əsasən, kadensiyalarda, tonikanın qəti təsdiqindən əvvəl, onun ilkin göstərilməsi zamanı rast gəlmək olur.

Yuxarıda qeyd etdiyimiz intonasiya tipləri Azərbaycan melodikası üçün çox səciyyəvidir. Musiqinin heç bir yönü melodiya qədər azad deyil. Bu azadlıqda melodiyanın individuallığının rəmzi durur. Yönəlmələrin dəyişkənliyi, müxtəlif incəliklər hərəkətin böyük və ya kiçik intensivliyi – bütün bunlar vacib ifadə mənası və onun xüsusi xarakterinin yaranmasında böyük rol oynayır. Belə ki, bu və ya digər musiqi mədəniyyətlərinə xas olan intonasiya inkşafı tiplərinin təsnifatı özünəməxsus dəyişkənliyi hərəkət formalarının bir-biri ilə növbələşməsini və onların sərbəst birləşməsini tələb edir.

Azərbaycan xalq musiqisinin, janr sisteminin, struktur ümumiləşdirici universallıqlarına üç kateqoriya aiddir – təkrarlılıq, variantlıq və rondoluluq.

Təkrarlılıq özünün sadəliyinə görə, ən müxtəlif xalqların milli musiqisində geniş vüsət tapmışdır. Quruluş daxilində, motivin təkrarlılığı,

sanki onu vahid bir tam kimi təsdiqləyir, dinləyici şüurunda möhkəmləndirir, musiqinin qavranılmasını asanlaşdırır, musiqi quruluşunun tarazlaşmasına imkan yaradır. Təkrarlılıq musiqi əsərində nizamlı tərkibin mühüm amili sayıla bilər.

Azərbaycan xalq mahnısında, musiqinin ifadə vasitələrinin milli xüsusiyyətlərini tədqiq etdikdə, biz mahnı kupletinin quruluşunda eyni melodik ibarələrin təkrar olunmasını bir daha qeyd etmək istərdik. Bu, Azərbaycan xalq mahnı melosunun «monotematik» olduğunu təyin etməyə imkan yaradır. Azərbaycan folklorunda tematik janr əlaqələrinin icmalı, müxtəlif təkrar tiplərini qeyd etmək imkanı verir.

1. Mövzu səviyyəsində qısa motivlərin təkrarı;

2. İntonasion və ritmik tərkibin vəhdətini xarakterizə edən, musiqi forması səviyyəsində, kiçik parçaların təkrarı;

3. Quruluş səviyyəsində, eyni masştablı, yalnız intonasion inkişafı ilə fərqlənən düzülüşlərin təkrarı;

4. Silsilə səviyyəsində, çoxtərkibli, struktur inkişaflı parçaların təkrarı.

Variantlıq – xalq musiqisində özünü iki səviyyədə göstərir:

1. Mövzu daxilində, əsas motiv özəyindən yaranan, sərbəst, melodik törəmələr zənciri kimi;

2. Ümumilikdə bütün quruluşun bölmələrinin qarşılıqlı əlaqəsi kimi. Burada yalnız fərdi deyil, daha dərin melodiya və struktur dəyişiklikləri ilə qarşılaşmaq olar. Variantlığın nəzərdən kecirdiyimiz hər iki, xırda və iri planda təzahürü, Azərbaycan xalq musiqisinin bütün janrlarında təsir edən improvizə sənəti ilə əlaqədardır.

Xalq musiqisində bu və ya digər növlü təkrarlar, intonasiyanın dayanmadan yeniləşməsi ilə diqqəti cəlb edir. Əksər hallarda ilk baxışdan dəqiq təkrar olunan motiv, daha dərin nəzər yetirdikdə, bu və ya digər intonasiyanın interval dəyişikliyinə yaxud yeni ritmik xüsusiyyətlərin yaranmasına, kiçik avazların əmələ gəlməsinə və s. məruz qalır. Müxtəlif sadə üsullara arxalanan xalq musiqisi, özünün ən dəyərli xüsusiyyətlərini, daimi və canlı inkişaf etmə sənətini üzə çıxarır. Azərbaycan xalq musiqisində variantlıq melodik intonasiya etmənin bütün növləri ilə sıx əlaqədardir. Melodik xəttin istinad pərdələrinin gəzişdirilməsi zamanı, variantlıq intonasiyanın sabitliyini qət edərək intonasion inkişafı dinamikləşdirir. Burada istinad pərdəsi dəyişikliyə məruz qalan obyekt kimi çıxış edərək, hər dəfə yeni şəkildə gəzişdirilir. Bir neçə sabit pərdələrin ardıcıl variant gəzişdirilməsi, variant sekvensiya yaradır. Belə

sekvensiya öz axıcılığı, bəndlərinin səlisliyi, gəzişmə mərhələlərinin bir-birinə rəvan keçidləri ilə seçilir. Variantlıq Azərbaycan melosunda həm də müxtəlif predyom növləri ilə uyğunlaşır. Ritmik, eləcə də xətvari melodik xüsusiyyətlər sabitlik və dəyişkənlik arasında tərəddüd edir. Azərbaycan folklorunda əsas intonasiyanın çoxsaylı metrik dəyişikliklərinə rast gəlmək olur. Belə ki, bu da ritmintonasion sahənin variant dəyişikliklərinə meyilli olduğunu təsdiqləyir. Bundan əlavə, milli musiqidə quruluşun ilkin tezisinin variant şərhi prosesində tematik cəhətdən vahid, lakin semantik olarq müxtəlif variantların ardıcıllığı əmələ gəlir. Hal-hazırda Azərbaycan melosuna xas olan xüsusi variant tipindən söhbət gedir. Miqyaslı sintaktik variantlıq, burada variasiyalılığın sinonimi olur.

Şifahi ənənəli Azərbaycan musiqisinin janr sistemində daha bir universal quruluş kateqoriyası – rondoluluq və ya başqa sözlə desək, ref-renlik öz əksini tapır. Bu prinsipin əsas mahiyyəti, ümumi sonluğu müxtəlif başlanğıçı olan, iki və ya bir neçə quruluşun (miqyas etibarilə eyni və ya təqribən eyni olan) birləşməsindən ibarətdir. Bu prinsipin bədii əhəmiyyəti, musiqinin ötəri təbiətindən – inkişafın son mərhələlərinin daha çox yadda qalması faktından irəli gəlir. Bununla yanaşı, refrenli quruluşlar üçün ümumi cəhət bənzər kadensiyaların periodik qayıdışıdır.

Ayrı-ayrı janrlar yaranır, yaşayır, bir-biri ilə əlaqəyə girir, inkişaf edir, yeni janr törəmələri əmələ gətirirlər. Sistemdaxili janr differensasiyası hər zaman böyük inkşaf yolunun nəticəsidir. Bu yol, çox vaxt, heç də asan olmur. Hər hansı bir milli mədəniyyətin janrları bütünlükdə vahid bir sistemə sirayət edərək qarşılıqlı bağlar əmələ gətirir. Bu bağlar gerçəkliyin ininkası kimi real həyatda qarşılıqlı əlaqədə təzahür edir. Azərbaycan xalq musiqisinin janrlarının tarixi-genetik əlaqəsi bizim tərəfimizdən, milli üslubun ifadə vasitələrinin kompleksi misalında, xüsusən milli melosun sabit tipoloji elementlərinin timsalında nümayiş etdirilmişdir. Ümumiliyin və spesifikliyin əlaqəsi müxtəlif janrlarda, folklorun ənənəviliyi sistemində mövcuddur. Ona görə də janrların güvənli mahiyyət prinsipini daşıyır.

Janr parametrləri müəyyən dərəcədə universaldır. Bu da Azərbaycan xalqının musiqi sisteminin həm vəhdət təşkil etməsi ilə, həm də insan şüuru üçün ümumi olan bəzi amillərlə şərtləndirilir. Lakin bəzi konkret janrlara xas olan xüsusiyyətlər, janr əlamətləri adlanan amil spesifikdir. Bu haqda daha sonra söhbət açacağıq.

**II fəsil "Şifahi ənənəli Azərbaycan musiqisinin spesifik əlamət-ləri"** adlanır və bu mövzuya həsr olunub.

Azərbaycan mədəniyyətinin zəngin bədii irsinin ayrılmaz hissələrindən birini, şifahi ənənəli musiqi təşkil edir. Müxtəlif xarakterli xalq mahnı və rəqsləri öz melodik gözəlliyi və forma kamilliyi ilə insanın diqqətini cəlb edir. Bu mahnı və rəqslər, çoxəsrlik yaradıcılıq təcrübəsinin məhsulu olaraq, nəsildən-nəsilə ötürülmüşdür.

Bu gün janr nəzəriyyəsinin tədqiqi, çoxcəhtli olduğu qədər də ziddiyyətlidir. Buna görə də musiqi elmində mövcud olan, janr nəzəriyyələrindəki ziddiyyətləri təcrid edərək, biz bu fəsildə, klassik təhlillərə, artıq sınaqdan keçmiş təsnifata əsaslanacağıq. Dediklərimiz ona görə məqsədəuyğundur ki, yaxın zamanlara qədər hələ 80-90-cı illərdə musiqi elmində «janr» kateqoriyasının aradan qaldırılması məsələsi ortaya atılmışdı. Belə hesab edilirdi ki, bir kateqoriya kimi janr, artıq öz məzmununu bitirib, tükənmişdir. Bununla yanaşı, bu gün Azərbaycan musiqi elmində biz, demək olar ki, musiqi əsərlərində "janr" yanaşmasının dirçəlişini, renessansını müşahidə edirik. Azərbaycan professional musiqisinin, eləcə də xalq musiqisinin ayrı-ayrı janrları tədqiq olunur və bu işlər də özünün gözəl nəticələrini verir.

Bu fəsildə, aşağıdakı parametrlər təqdim edilir:

1. Janrlar diffuziyası və onların ciddi təsnifat sistemi;
2. Azərbaycan xalq musiqisi kontekstində janrların bərabərliyi;
3. Azərbaycan xalq musiqi janrlarının qarşılıqlı əlaqəsi;
4. Azərbaycan xalq musiqi janr sisteminin tamlığı, vahidliyi.

Şifahi ənənəli Azərbaycan musiqisinin müxtəlif janrları ümumi universal əlamətləri ilə yanaşı, özünəməxsus parlaq spesifik xüsusiyyətlərə də malikdir. Burada bir çox amillər, o cümlədən, verilən janrın ictimai şüur formaları sistemində yeri, onun konkret praktiki təyinat daşıdığı ideoloji funksiyasıyaların xarakteri əhəmiyyətli rol oynayır.

Azərbaycan musiqisində hər bir janrın spesifikliyi müxtəlif nisbətdə ənənə və improvizasiyaya əsaslanan kollektiv və müəllif yaradıcılığı ilə müəyyənləşir.

Sabitlik şifahi ənənəli musiqidə, variantlılığı, dəyişkənliyi və improvizasiyalığı nəzərdə tutur. Lakin ənənə nisbəti, sabitlik və improvizasiyalıq janrdan asılı olaraq dəyişilir.

Folkloru vahid bir sistem kimi tədqiq edərkən folklorçu alimlər janr əlamətləri kompleksini formalaşdırmışdılar. Burada söhbət müxtəlif müqayisəli anlayışların bir-birindən asılılığı prinsipindən gedir. Buna eyni zamanda ümumi və fərdi, spesifik və tipoloji, kollektivçilik və

improvizasiyalıq, stabil və mobil, janrlararası və məhdud janrlar və s. münasibətlər aiddir.

Azərbaycan xalq musiqisinin janr xarakteristikasını müəyyənləşdirən cəhətlər aşağıdakılərdir:

1. Kiçik həcmli lad dönümünə istinad;
2. Eyni tipli melodik özəklərin variant təkrarı;
3. Müxtəlif quruluş səviyyələrində simmetriyaya yönəlmə;
4. Dalğavari tipli melodikanın tez-tez istifadəsi;
5. Poetik mətnə yönələn ritmin təşkili.

Azərbaycan xalq mahnılarının eləcə də mərasim mahnılarının janr müxtəlifliyi onların musiqi dilinin, poetik əsasının spesifik özəlliyini müəyyənləşdirmişdi, burada müxtəlif tematik quruluş və mahnı formalarının əmələ gəlməsinə təkan vermişdir. Azərbaycan xalq mahnılarından, bədii təzahür kimi danışanda, mütləq onu qeyd etmək lazımdır ki, mahnılar xalqın musiqi təfəkkürünün səciyyəvi cizgilərini özündə cəmləşdirən milli mədəniyyətin yaranmasını əks etdirir.

Beləliklə, Azərbaycan xalq mahnısının əsasını konkret milli xarakter daşıyan, ümumi tarixi əlamətləri təşkil edir. Başqa sözlə desək, mahnıvariliyi xalq mahnı mədəniyyətinin üslub xüsusiyyətlərinin cəmi kimi müəyyənləşdirmək olar. Yalnız bununla yanaşı, mahnıvarilik – musiqi təfəkkürünün spesifik konkret-milli ifa etmə üsulu, musiqili intonasiya etmə prinsipidir.

Geniş estetik planla yanaşı, bu anlayış bizi daha dar, kiçik aspektdə də maraqlandırır. Çünki, mahnıvarilik musiqi formasının, musiqi dilinin qanunauyğunluqlarını müəyyənləşdirir. O da öz növbəsində spesifik məzmuna bağlı olan xüsusi səs quruluşuyla xarakterizə olunur.

Mahnının əhatə dairəsi, insanın daxili aləminin müəyyən tərəflərini əks etdirir, onun həyəcanlarının, qəlbinin təlatümünün mürəkkəb dünyasını üzə çıxarır. Mahnının psixoloji vəziyyətini isə onun musiqi dilinin özəlliyi müəyyənləşdirir. Lirika mahnıvariliyin təzahür formasının üzə çıxmasına bilavasitə kömək edir.

Geniş oxunaqlı başlanğıc ilk növbədə lirik emosiyaları ifadə etməyə yönəlmişdir. Bir qayda olaraq, burada melodiyanın genişliyi, emosional dolğunluq, quruluşun davamlılığı əks olunur.

Mahnı tematizmi üçün aşağıdakı cəhətlər səciyyəvidir:

1. Tematizmin ilkin vəziyyətini və ona xas olan cəhətləri saxlayan (ən çox da ümumi cəhətləri) uzun sürən ekspozisiyalıq;
2. Əsasən, ilk mərhələdə tematizmin şərhində hərəkətin qapalılığı;

3. Vahid, arasıkəsilməyən, daxilən gərgin inkişaf xətti;

4. Kəskin kontrastların olmaması.

Öz mahiyyəti etibariylə şifahi ənənəli Azərbaycan musiqisinin hər bir janrı, milli üslubun xüsusiyyətləri səviyyəsində özünü doğruldur, janr sisteminin ümumiləşdirilmiş universallığını göstərir.

Azərbaycan musiqisinin milli təbiəti, Azərbaycan xalq musiqisinin spesifik janr cizgiləri vasitəsiylə açılır. Bu işarələrin açıqlanması Azərbaycan musiqi mədəniyyətinin xüsusiyyətlərini dəqiqləşdirib, müəyyənləşdirməyə imkan verir. Bu xüsusiyyətlərdən biri - Azərbaycan xalq musiqisinə xas olan avazat, instrumental janrlı rəqs musiqisindən tamamilə fərqlənir. Bundan başqa, Azərbaycan xalq musiqisinin spesifikasını formalaşdıran amillər - melodiyanın genişliyi, lad əsaslarının melodik təbiəti, diatonikanın və xromatikliyin xüsusi koordinasiyası dəqiq tonika sistemi daxilində lad dəyişkənliyi inkişafın periodikliyi və sərbəstliyi, variantlılıq və s.-dir. Göstərdiyimiz elementlər janr spesifikasında universallığın göstəricisidir. Bir sözlə, burada vahid janr universallığı sxemində konkret janr qrupuna xas olan, spesifik təzahürlər əks olunur.

**III fəsil "Azərbaycan xalq musiqisinin janrlararası əlaqələri"** adlanır. Bu fəslin məqsədi xalq musiqisi nümunələrinin müqayisəli təhlilini edib, onların oxşar və fərqli cəhətlərini göstərməkdir.

Qarşılıqlı təhlili burada bir metod kimi götürürük. Başqa sözlə təhlil zamanı fəsilin materialları ümumiləşdirilir, analiz edilmiş musiqinin ümumi və spesifik cizgiləri baxımından konkretləşdirilir.

Azərbaycan xalq musiqisində janrların qarşılıqlı əlaqələrinin təhlilinin mühümlüyü, ondan irəli gəlir ki, biz dissertasiya işində bu qanunauyğunluqlar prosesini Azərbaycan musiqisində bir tipoloji təhlil əsası kimi götürürük.

Beləliklə, biz deyə bilərik ki, hər bir janr müəyyən mənada tamdır, bağlıdır və spesifikdir. Lakin Azərbaycan xalq musiqisinin janr sisteminin inkişafında qarşılıqlı janr əlaqələri böyük rol oynayır. Təkcə onu demək kifayətdir ki, şəhər mahnısı və mərasim mahnılarının birliyi, zərbli-muğamlarda janrların sintezi, Azərbaycan muğamında təsnif, rəng, muğamat janrlarının qarşılaşması – bütün bu xüsusiyyətlər janrlararası əlaqələrin sübutudur.

Azərbaycan xalq musiqisində hər bir janrın öz xüsusi yeri var. Burada hər bir janr dəqiq müəyyənləşmişdir. Bu baxımdan, sösüz ki, müqayisəli təhlil prosesi sadələşdirilmişdir.

Verilmiş fəsildə dominant janr əlamətləri aşkara çıxarılmışdır. Bu çox vacibdir. Müxtəlif folklor ənənələrində sistemin dominantlıq prinsipi müxtəlifdir. Doğrudur, musiqi sisteminin ünsürləri – səs, ton, lad, intonasiya, ritm, forma və s. eynidir. Lakin xalq musiqisinin milli xüsusiyyətlərini məhz dominant janr əlamətləri, həmçinin onların qarşılıqlı əlaqələri müəyyənləşdirir.

Hər hansı bir problemi tədqiq edərkən, onun öyrənilməsinə başlayarkən faktoloji bazaya, dolğun, inanılmış sənədlərə istinad etmək lazımdır. Buna görə də Azərbaycan folklorunun janrlararası əlaqəsini tədqiq edərkən biz ilk növbədə musiqinin ifadə vasitəsinin dinamik inkişaf yollarını janr təzahürü aspektində təsəvvür etməliyik. Çox vaxt musiqi mövzusunun ladfunksional inkişaf xüsusiyyətlərini məhz janr müəyyənləşdirir. Belə ki, janrın diapazonunu, melodik intonasiyanın bu və ya digər inkşaf prinsiplərini, ritmik quruluşunu müəyyən edərək, eyni zamanda kompozisiyanın quruluş tərtibatını təyin edir. İri planda götürsək janr, onun əsas xüsusiyyətləri, milli spesifikanın onda realizə edilmə dərəcəsi, ümumilikdə milli folklorun keçdiyi inkişaf yolunu əks etdirir.

Bizim müqayisəli tədqiqatımız üçün Azərbaycan xalq mahnılarının çoxşaxəli janrlarının arasında mərasim mahnılarını və lirik mahnıları seçmişik. Janrın hər bir qolu məişətdəki mənsubiyyətinə görə bədii ifadə vasitələrinin ümumi xarakterini dəyişir. Dediklərimiz, mahnının janr xüsusiyyətləri ilə sıx bağlıdır. Bundan başqa, seçdiyimiz janr qrupları tədricən mürəkkəbləşdikcə, tematizmin strukturunda dəyişən dinamikanı nümayiş etdirir.

Azərbaycan mərasim folklorunda lad dramaturgiyasına, onunla bağlı olan melodik intonasiyaya, formaquruluş prinsipinə diqqət yetirək.

Azərbaycan mərasim mahnılarını tədqiq edərək, onun tematizminin struktur prinsiplərini, ladintonasiya ifadə xüsusiyyətlərini araşdırdıqdan sonra aşağıdakıları söyləyə bilərik. Janrın ümumi qanunauyğunluqları mahnılarda qısa motivlərin təkrarlanması prinsipinə əsaslanaraq – həcm və tematik inkişafın məhdud istifadəsi tələb olunur. Bu prinsip musiqi materialının inkşaf prossesində əsas dominantlığı təşkil edir.

Mərasim mahnılarının intonasiya kompleksi, bir çox misallardan göründüyü kimi, bir və ya iki lad əsasında göstərilir. Musiqi formaları olduqca sadə quruluşa malik olub, eyni zamanda, musiqi mətninin daxili, mürəkkəb sintaksis təşkilini də istisna etmir. Bu, ilk növbədə mövzu həcmində kvadrat olmayan sintaksik vahidin kristallaşması ilə bağlıdır.

Tarixi inkişaf mərhələsində xalq mahnı yaradıcılığında janr differensiasiyası baş vermişdir. Psixoloji ifadələrin gücləndirilməsi, real həyatın, ətraf mühitdən irəli gələn insani hisslərin, fikirlərin incəsənət obrazlarında təzahür etməsi ənənəsi xalq mahnılarında lirik elementlərin artmasına gətirib çıxarmışdır. Bu elementlərin inkişafı, lirik mahnı janrının formalaşmasına təkan verir. Lirik mahnı janrı musiqi ifadə vasitələrinə görə olduqca zəngin və çoxşaxəli məzmuna malikdir. Lirik mahnılar öz növbəsində geniş, musiqili-şeir kompleksini yaradır. Mərasim mahnıları ilə müqayisədə lirik mahnılar melodik səs sırasının genişliyi ilə fərqlənir. Onun intonasiya inkişafına özünəməxsus gərginlik gücü, emosional dərinlik məxsusdur.

Bu fəsildə mərasim və lirik Azərbaycan xalq mahnılarının müqayisəli təhlilinə diqqət vermişik, mahnı formasının əsas quruluş prinsiplərinin, janr təyinatı ilə birbaşa bağlılığının şahidi oluruq. Sözsüz ki, musiqi materialının melodik inkişaf dərəcəsi və musiqi materialının ifadə edilmə qaydaları hər bir janr qrupunda və ayrı-ayrılıqda götürülmüş hər bir forma daxilində sırf fərdi xarakter daşıyır. Bununla yanaşı aşağıdakıları qeyd edə bilərik: mərasim mahnılarından fərqli olaraq, lirik mahnılarda mahnı formasının ladfunksional, melodik və struktur mürəkkəbliyi gözə çarpır. Lirik mahnıların melodiyası, mərasim mahnılarına nisbətən öz dinamik inkişafı, intonasiya diapazonunun genişliyi, melizmatikanın müxtəlifliyi və zənginliyi, poetik mətnin ayrı-ayrı vurğularının vokalizasiyası ilə fərqlənir. Bütün bunlar artıq mahnının əvvəlindən melodik mahnıvariliyi, emosionallığı artırır. Bu janr qrupunda çox zaman axıcı, intonasiya baxımından zəngin mahnıvariliyə rast gəlirik. Belə hal isə melodik parçanın gələcək inkişafı üçün impuls verir. İntonasiya və miqyas etibarilə sadə olan lirik mahnı mövzuları mahnı kompozisiyasının sonrakı inkişafı zamanı daha da mürəkkəbləşir.

Mərasim mahnılarından fərqli olaraq, lirik mahnılarda melodik xəttin inkişafında bir qayda olaraq bir neçə istinad pərdələrinə rast gəlirik. Burada bir neçə belə gəzişmə blokları sistemi sekvensiya-melodiyalar əmələ gətirir. Sekvensiyaların iştirakı isə forma quruluşunun məqsədyönlü edir, ona xüsusi tamlıq, məna verir. Sekvensiyaların köməyi ilə köməkçi istinad pərdələrdən tamamlanmış tonikaya təbii keçid yaranır. Sonuncu quruluşda əldə olunmuş tonika sferası, özündən əvvəlki inkşafın, «yuxarıdan aşağı» hərəkətinin son nəticəsi kimi aşkar olur. Beləliklə, hər bir lirik mahnıda olan sekvensiyalar musiqi mətninin məzmunundan asılı olaraq, ona uyğunlaşır, qarşıya qoyulan struktur məsələlərinə cavab verir.

Mərasim mahnılarından fərqli olaraq, lirik mahnılarda müxtəlif təkrar variantlara rast gəlirik. Bu təkrarlarda nəinki kiçik motiv və ibarələr, hətta mahnı formasının geniş bölmələri də qarşılaşdırıla bilər. Ayrı-ayrı vaxtlarda bu, mahnı kompozisiyasının üç hissəli quruluşuna gətirib çıxarır. Təkrarlıq hər zaman dəqiq xarakter daşımır, amma melo-ritmik, lad və hətta həcm dəyişikliyi üzə çıxa bilir.

Lirik mahnıların intonasiya inkişafı prinsipi onların strukturunun mürəkkəbliyini yaradır. Formanın dəqiq bölümləri onun əsasında çoxmərhələli tematik strukturun əmələ gəlməsinə mane olmur. Belə hallarda hətta ardı-arası kəsilməyən intonasiya məzmununa və ya refren prinsipi ilə zənginləşmiş iki hissəli kuplet formasına və kuplet-nəqarat formalarına rast gəlmək olur. Poetik sözlərin detallarını dəqiqliklə, incəliklə izləmək nəticəsində lirik mahnıların quruluşunda aktiv, geniş-sintaksik inkişaf nəzərə çarpır. Kiçik motivlər ibarələrdə cəmləşirlər. Digər halda, daha çox rastlaşdığımız lirik mahnılarda geniş miqyası ibarələrin inkişafı nəticəsində ayrı-ayrı motivlərə bölünə bilir. Bütün bu sadaladığımız xüsusiyyətlər, lirik mahnı janrı üçün səciyyəvidir və bununla biz onu, mərasim mahnı yaradıcılığından ayıra bilirik.

Beləliklə, lirik mahnının janrı öz-özlüyündə daha emosional hisslərə malikdir. Təhlillər zamanı ladintonasiya strukturuna, quruluş tiplərinin inkişafına görə lirik mahnı janrının mərasim mahnı janrı ilə müqayisədə, ondan bir pillə yuxarıda durduğunun şahidi oluruq.

**IV fəsil "Azərbaycan xalq rəqs və rənglərinin müqayisəli təhlili"** adlanır. Azərbaycan xalq musiqisinin çoxsaylı janr qrupları arasında rəqslərin və rənglərin öz xüsusi yeri vardır. Azərbaycan xalq musiqisinin janrlararası əlaqələrinin tədqiqi yolunda sistemli müqayisəli təhlilin aparılması mühüm mərhələ olub, yüksək potensial imkanlardan irəli gəlir. Buna görə də, bizim işimizin sonrakı mərhələsində Azərbaycan xalq rəqs və rənglərinin ladintonasiya dramaturgiyasının, struktur və forma quruluşlarının qanunauyğunluqlarının müqayisəli təhlilinin tədqiqi böyük maraq doğurur. Məhz bu baxımdan biz əvvəlcə Azərbaycan xalq rəqslərinə müraciət etməyi məqsədəuyğun hesab edirik.

Azərbaycan rəqs musiqi nümunələrinin tədqiqi onu göstərir ki, iki-üç hissəli quruluşlara malik olan rəqslərimizin musiqisi variasiyalı inkişafa əsaslanır. Çox vaxt qısa intonasiya özəkləri motiv işlənmələrinə uğrayaraq, variantlarla yenilənirlər. Burada melodiyanın fasiləsiz inkişafı həcm-sintaksis baxımından dəqiq bölünmüş tematizmlə birləşir. Musiqidə nəzərə çarpan sərbəst kontrast isə bu ümumi intonasiya bölümlərindən

irəli gəlir. Ladintonasiya təzahürü baxımından rəqslərdə ladların kiçik saylı istinad tonlarının üzə çıxması müşahidə edilir.

Qeyd edək ki, rənglərin əksəriyyəti rəqs xarakterli olurlar. Məhz bu baxımdan da biz rənglər və Azərbaycan xalq rəqsləri arasında müqayisəli təhlil aparmaq qərarına gəldik.

Sözsüz ki, lad təşkilinin qanunauyğunluqları, Azərbaycan xalq musiqisində tematizmin struktur təşkilinə təsir göstərir. Bu muğamın silsilə formasının tərkib hissəsi olan Azərbaycan rənglərində xüsusilə aydın hiss olunur. Onlar ladintonasiya baxımından kanonlaşmış, ritm – zaman münasibətlərində isə qismən sərbəstdirlər.

Xalq rəng və rəqslərinin ladintonasiya və quruluş xüsusiyyətlərinin tədqiqi nəticəsində aşağıdakıları bəyan edə bilərik.

Azərbaycan xalq rəqs və rəngləri yetərincə inkişaf etmiş instrumental formalardır. Onları melodikanın zənginliyi və rəngarəngliyi, ritmin oynaqlığı, nəfis və zövqlü struktur tərtibatı fərqləndirir.

Bununla yanaşı melodik inkişaf dərəcəsi hər bir konkret nümunədə fərdi formayaradıcı üsulu təyin edir. İntonasiya inkişafı həm "ostinat" inkişaf prinsipi ilə (burada mövzu forma boyu variasiya dəyişikliklərinə məruz qalaraq təkrar olunur) həm də tematik qarşıqoyulma tipinə görə (sual-cavab qarşıdurması) keçirilə bilir. Lakin həm birinci, həm də ikinci halda əsas intonasiya özəyi başlanğıc tezisdə konsentrasiya olunur.

Azərbaycan xalq rəqslərində, eləcə də rənglərimizdə kiçik strukturlarla yanaşı, daha iri planlı, seçilmiş lad səsdüzümündə istinad pərdələrinin müxtəlif miqdarda olması ilə səciyyələn iki və üç hissəli formalara rast gəlinir. Bununla yanaşı, rənglərin, muğam silsiləsinin tərkib hissəsi olduğundan özünün ladintonasiya quruluşuna görə muğamın improvizasiyalı şöbələri ilə bilavasitə əlaqədar olmasına baxmayaraq, onlar da xüsusiləşə və sərbəst ifa oluna bilirlər. Beləliklə, rənglərdə ladintonasiya ifadə prosesi və strukturun kristallaşma prosesində muğam intonasiyasının prinsiplərinin təsiri aydın hiss olunur.

Muğamın milli melosun mənbəyi kimi xüsusi əhəmiyyəti, ilk növbədə onun prosesuallığında, melodik inkişafın aramsız axınında, eləcə də mənsub olduğu eyni lada xas olan qohum gəzişmələr qrupunun aramsız variantlığı ilə şərtləndirilən intonasiya birliyindədir. Bir qayda olaraq, rənglər bir lad təşkilində qurulurlar, lakin rəqslərdə yönəlmələrə, hətta digər lad sisteminə modulyasiyalara da rast gəlmək olur. Muğam konsepsiyasında muğam şöbələrinin funksional tabe olunması xüsusi əhəmiyyət kəsb edir. Bu tabe olunma, laddaxili istinad pərdələrinin –

müvəqqəti tonikaların ardıcıl irəli sürülməsinə əsaslanır. Onlar da öz növbəsində, tamamlayıcı "mayə"ilə intonasiya təzadı yaradır. Azərbaycan xalq rəqslərində də, rənglərdə də kompozisiya və ritmik tərtibatı ilə secilən mövzular, ladintonasiya hərəkətinin inkşaf prosesi üçün zəmin yaradırlar. Yalnız rənglərdə, özündə müəyyən muğamın xüsusiyyətlərini birləşdirən və öz inkişafında ladın bütün istinad pillələrini əhatə edən, muğama xas dinamik və səsyüksəkliyi relyefini əks etdirən iri həcmli kompozisiyalara rast gəlmək olur. Beləliklə, rənglərdə, zirvəyə, mənbəyə doğru və sonra oradan kristallaşaraq ciddi pilləvari aşağı enən sekvensiya xətti, hər pərdənin gəzişdirilməsi ilə nəticədə tamamlayıcı "mayə"yə yönələn hərəkət tematizmin ideal forma təşkilinə çevrilir.

Sonunda qeyd edək ki, rənglər Azərbaycan xalq rəqslərindən fərqli olaraq, muğamın mərhələli inkişafının xüsusiyyətləri ilə daha dərin əlaqələrinin olduğunu nümayiş etdirirlər. Onlar ciddi planlı lad əsası ilə fərqlənən virtuoz tərtib olunmuş "rəqsin" instrumental quruluşun daha yüksək səviyyəsini özlərində cəmləşdirirlər.

**"Rast modeli, lad sisteminin millətlərarası əsası kimi" adlı V fəsil** ümumşərq kontekstindən araşdırılır.

Azərbaycan musiqisi digər Şərq xalqlarının mədəniyyətləri ilə sıx bağlıdır. Azərbaycan musiqisinin yaranma və inkişaf tarixi, nəhəng zaman çərçivəsini və bir neçə yüzillikləri əhatə edir. Sözsüz ki, musiqi mədənyyətlərinə yaxın xalqların yaradıcılığı assimilyasiya olunmuş bununla bərabər mədəniyyətlərin dərin qarşılıqlı təsiri, Azərbaycan musiqisinin özünəməxsusluğunu qoruyub saxlamağa mane olmamışdır.

Yaxşı məlumdur ki, bədii əlaqələrin prosesləri mədəniyyətin inkişafında böyük, bəzən də, həlledici məna kəsb edir. Sözsüz ki, bu prosesin konkret detallarının, qarşılıqlı təsir yollarını təyin etmək, yetərincə çətindir. Lakin buna baxmayaraq, muqayisəli təhlil nəticəsində musiqi mədəniyyəti səviyyəsində millətlərarası əlaqələrin müəyyən bir şəklini yaratmaq mümkündür.

Azərbaycan xalq musiqisinin, bədii əlaqələrinin, milli özünə-məxsusluğunu araşdırdıqda, biz sözsüz ki, bu əlaqələri Şərq baxışı kontekstində təqdim etməliyik. Məlum olduğu kimi, Yaxın və Orta Şərq xalqlarının musiqisinin regional spesifikliyi olduğu kimi, bir çox ümumi cizgiləri də vardır. Bu da sosial-iqtisadi şərait və tarixi inkişaf prosesində sıx qarşılıqlı əlaqələrlə şərtləndirilir.

Təqdim edilmiş fəslin əsas məqsədi, diatonik lad modelinin, Azərbaycan xalq musiqisinin bədii, mədəni əlaqələrini həyata keçirən bir

lad təməli olduğunu gostərməkdir və bir lad təməlini tədqiq edərkən ərəb-müsəlman mədəni ənənələrində musiqinin intonasiya məğzinin, anlamının xüsusiyyətlərini araşdırmağa çalışmışıq.

Yaxın və Orta Şərq ölkələrinin musiqi nəzəriyyəsi sistemi, mürəkkəb sistem olaraq bir çox elementləri özündə cəmləşdirir. Bu da ondan irəli gəlir ki, əsrlər boyu bir çox xalqların musiqi təcrübəsi burada birləşmişdir. Bu sistemin təşkilini musiqi folkloru xalq musiqisi, Yaxın və Orta Şərq xalqlarının mahnı-instrumental təcrübəsi stimullaşdırmışdır.

Rast ladı ərəb müsəlman məkanının əsas ladlarından biridir. O, səslənmə etibarilə Avropa majoruna qohum olan diatonik tetraxordların birləşməsindən əmələ gəlir.

Ü.Hacıbəyli yazırdı ki, "Bu muğam kökünün möhkəm və məntiqli olması onun adının mənasına tamamilə uyğun gəlir: "Rast" düz, doğru deməkdir. Qədim musiqişünaslar "Rast"ı muğamların anası adlandırırdılar. "Rast" muğamı yalnız öz adını və səssırasını deyil, hətta öz mayə (tonika) yüksəkliyini də zəmanəmizə qədər mühafizə etmişdir. Bütün Yaxın Şərq xalqlarında "Rast" məqamının quruluşu və mayə yüksəkliyi eynidir. Bu mayə kiçik oktavanın "sol" səsindən ibarətdir"[12]

Orta əsr dövründə lad sisteminin təşəkkülü lad strukturlarını yaradan akustik vahidlərin sistemləşməsi ilə başlamışdır. Belə önəmli lad vahidi olan tetraxordun dərk olunması mərhələ mərhələ həyata keçirdi.

Azərbaycan xalq musiqisinin, xüsusən də Azərbaycan lad sisteminin millətlərarası əlaqələrinin tədqiqi, bu təzahürün tarixi zəminlərinin olması haqqında öncədən xəbər verir. Orta əsr dövrünün nəzəri risalələri, yazılı mənbələri bunu yetərincə təsdiqləyir.

Ladın musiqili-obraz xüsusiyyətlərinin tipikləşdirilməsinə cəhd etmə müəyyən lad kompleksinin inkşafına xas olan intonasiya gəzişmələrinin modelləşməsinə gətirib çıxarır. Sözsüz ki, daha sonrakı tarixi inkişaf prosesində ladintonasiya oxumaları dəyişilməz vəziyyətdə saxlanıla bilməzdi. Lakin orta əsr dövrünə aid Rast ladının misal gətirdiyimiz vokal-instrumental formaları, yalnız səssırasının deyil, həm də ona xas olan intonasiya modellərinin tipik cizgilərinin sabitliyinə dəlalət edir.

Şərq lad sisteminin evolyusiyasında ərəb-müsəlman regionunun sıx mədəni əlaqələri faktı, o cümlədən, Azərbaycan və ərəb musiqi elminin

---

[12] Hacıbəyov Ü.Ə. Azərbaycan xalq musiqisinin əsasları. Bakı.Yazıçı. 1985, 154 s.

qarşılıqlı əlaqələrinin təzahürü, görkəmli Azərbaycan alimlərinin yaradıcılıq təcrübəsində xüsusi əhəmiyyət kəsb edirdi.

Yaxın və Orta Şərq xalqlarının müasir lad sistemi – çoxəsrlik təkamülün nəticəsidir. Qeyd edək ki, orta əsrlərin klassik formaları ilə müqayisədə, Şərq xalqlarının lad kompleksləri mühüm dəyişikliklərə məruz qalmışlar. Bu dəyişikliklər makamların ümumi sayına, onların adlarına, ayrı-ayrı pillələrin adlandırılmasına və funksiyasına, tetraxordların birləşmə qaydalarına, intervalların keyfiyyətinə təsir etmişdir. Bununla yanaşı, ladın həyat fəaliyyətini reqlamentləşdirən əsas prinsipləri, intonasiya baxımından tipik melodik gəzişmələr, çox zaman qorunub saxlanılmışdır. Bunu Yaxın və Orta Şərq xalqlarının musiqi mədəniyyətinin diatonik əsasını təşkil edən "Rast" sistemi əsl mənada nümayiş etdirir.

Azərbaycan lad sistemi təkcə Ərəbistan, İran deyil, həm də türk lad təşkili ilə eyni təmaslarda yerləşir. Azərbaycan və türk ladlarının intonasiya quruluşlarında bənzər cəhətlər çoxdur. Bununla bərabər, onlar fərdi xüsusiyyətlərə də malikdirlər. Türk ladlarının sayı olduqca çoxdur. Onların hamısı oktava səssırasının quruluşu həcmindədir. Türk ladlarının inkişafı da İran və ərəb ladları kimi, diatonik «pifaqor» quruluş çərçivəsində baş vermiş və daha xırda melodik intonasiyaların (çərək tonların) üzə çıxmasına yönəlmişdir.

Şərq regionunun müxtəlif lad sistemlərində mövcud olan "Rast" səsdüzümünün quruluşunu araşdırarkən biz aşağıdakıları qeyd edə bilərik. Məlumdur ki, hər bir tonu ladın müstəqil pilləsi olan və hər hansı bir başqa pillədən törəmə xarakteri daşımayan səssırası, diatonika adlanır. Məsələn, əgər Avropa major-minor ladlarında hər hansı bir pillənin xromatik variantı alterasiya kimi qəbul olunursa, Şərq ladlarında belə variant heç də xromatizm hesab edilmir. Hətta səssırasının müstəqil funksional əhəmiyyətli pilləsi sayıla bilər. Azərbaycan rast ladında və özbək rost, türk Əcəmli rast ladlarında biz bir pillənin iki variantına rast gəlirik. Belə ki, Azərbaycan rastında III «si» pilləsi tonikanın alt aparıcı tonudur, X «si$^{b}$» pilləsi ladın sonuncu tonudur. Bu iki pillə bir-birindən asılı olmayaraq, hər biri yalnız ona aid olan funksional əhəmiyyət daşıyır. Nəticədə rast ladı – diatonik laddır və demək olar ki, Şərqin bütün lad sistemlərində mövcuddur. Onun quruluş göstəriciləri Azərbaycan, ərəb, fars, türk, özbək lad səsdüzümündə eynidir. Türk, ərəb və İran variantlarında biz tonikanın əskilmiş tersiyasını görürük. Bundan əlavə

tersiyanın əskilməsinə biz Azərbaycan "Rast"ında da rast gəlirik. Özbək lad sistemində isə 3-cü pillə dəyişkən xarakter daşıyır: ya major, ya da minor ola bilir.

Qeyd edək ki, rast ladının quruluş özəllikləri, xüsusilə də ona xas olan xalis kvartaların konsonant ardıcıllığı Şərq musiqisinin ladını, bir çox Avropa xalqlarının musiqisində istifadə olunan miksolidik diatonik səssırası ilə qohumlaşdırır. Diatonik sistemin səslərinin qarşılıqlı münasibətlərində kvarta-kvinta xüsusiyyəti üstünlük təşkil edir. Qeyd edək ki, bu münasibətlər Şərq musiqi mədəniyyətində rast ladının təşkilində də tipikdir. Fikrimizi təsdiq edən bir neçə misal gətirək:

1. Azərbaycan "Rastı"nın melodiyası inkişaf proseslərində həm kvarta tonuna (Hüseyni güşəsi), həm də kvinta tonuna (Vilayəti şöbəsi) arxalanır;

2. Ərəb "Rastı"nın "Rast-Nəva" və "Hicaz-Nəva" şöbələrində kvinta intonasiya dayağı rolunu oynayır. Əlavə edək ki, "Hicaz-Nəva" şöbəsində VI pillənin əskilməsi və VII pillənin artırılması halları müşahidə olunur. Bu da Azərbaycan "Rastı"nın "Vilayəti" şöbəsində IX və X pillələrin alterasiyasına uyğun gəlir;

3. İran "Rastı"nın "Pəncgah" və "Zabol" bölmələrində kvinta əsas dayaq (şaxed) rolu oynayır;

4. "Rost" şamşmakomunun "Talkin" bölməsində kvinta tonu dayaq mərkəzi kimi qeyd olunur. Bundan əlavə burada, "Muxammasi-Rost" bölməsindən, "Müxammasi-Uşşok" bölməsinə keçid zamanı, "do" "Rost"dan "sol" "Rosta", kvinta modulyasiyası qeyd olunur;

5. Türk "Rast" makamında "Nəva" bölməsində kvinta dayaq pilləsi olur. Türk ladlarının qəliz səssıralarının strukturu öz sıralarına "Rast" pentaxordunu daxil edir. Onlara isə dayaq tonlarının kvarta-kvinta münasibəti xasdır. Zənn edirik ki, araşdırdığımız faktlar rast ladını Şərq musiqi mədəniyyətinin diatonik əsası kimi, bir çox Şərq xalqlarının millətlərarası əlaqələrinin müəyyən olunmasında mühüm və həlledici bənd kimi tədqiq etməyə imkan verir.

Dissertasiyanın hazırkı bölümündə biz, şərq regionunda rast lad sisteminin dərin tipoloji parametrlərini sübut etmək üçün, musiqi yaradıcılığının ayrı-ayrı nümunələrində ladintonasiya dramaturgiyasını təhlil edirik. Burada biz, bir-birindən daha uzaq olan lad sistemlərini – türk xalqının «ultraxromatik» musiqisinə və onunla müqayisədə Orta Asiya xalqlarının «nisbətən xalis» diatonik şkalasına müraciət edirik.

Təhlil olunmuş materialdan nəticə çıxararaq deyə bilərik ki, rast lad sistemi şərq musiqi mədəniyyətində xüsusi sabitliyi və müəyyən mənada özünün təşkili, elementlərinin kanonlaşması ilə seçilir. Söhbət rast ladintonasiya quruluşunun bir çox struktur-yaradıcı və struktur-inkişafedici elementlərindən gedir. Digər elementlərlə yanaşı, çox zaman tonikanın ümumi səsyüksəkliyinin saxlanılması, tersiya tonunun kiçik yönəlməsi ilə müşayiət olunan səssırasının diatonik əsasının oxşarlığı, eləcə də, pillələrin alterasiya qanunlarının və tonik kadensiyaların formullarının oxşarlığını qeyd edək. Əlavə olaraq, tonika sabit səsi ilə intonasiya əlaqəsinə girən diatonik sistemin əsas cəhəti kimi, kvinta tonunun mütləq funksional qabardılmasını göstərək. Həhayət, orta əsr musiqi elmi və yaradıcı təcrübəsi ilə reqlamentləşən, intonasiya oxumalarının əsas melodik dayağının göstərilməsinə diqqəti cəmləşdirək.

Dissertasiyanın bu bölməsində biz müxtəlif musiqi sistemlərinin oxşar və fərqli cəhətlərini tədqiq etmişik. Xüsusi olaraq, təhlil etdiyimiz təzahürün stabil, sabit, model olması deyil, həm də bu təzahürlərin genezisi olan – təkrarı, qeyd etmək istərdik. Təqdim etdiyimiz konkret material, onun tipoloji eyniliyinə dəlalət edir. Ərəb müsəlman nəzəri sisteminin cizgilərinin açıqlanmasının sabitliyi Yaxın Şərq xalqlarının musiqisinin birliyini, qohumluğunu parlaq şəkildə əks etdirilir.

Dissertasiya işində rast lad modelini Yaxın Şərq musiqi mədəniyyətinin diatonik əsası kimi araşdırdıqda, onun azərbaycan lad sistemində də möhtəşəm bir varlıq olduğunu qeyd etməliyik. Elə bir varlıq ki, onun formalaşması həm azərbaycan musiqisinin öz autentik potensialında, həm də azərbaycan musiqisinin assimilyasiya prosesi nəticəsində alınma qeyri-milli elementlərlə zənginləşməsi zəminində baş verir. Qeyd edək ki, millətlərarası əlaqələrin qurulmasının bütün mərhələlərində Rast lad modeli iştirak edib: həm 12 makam sisteminin formalaşmasına qədər (XIII əsrə qədər), həm artıq formalaşmış və inkişafını tapmış 12 makam sistemi dövründə (XIII-XV əsr), həm də regional lad sistemlərinin formalaşması və lokallaşması dövründə (XVI-XIX əsr) fəal iştirak etmişdir.

Bizim təhlilin əsasına funksionallıq anlayışı qoyulmuşdur.

Funksiya kateqoriyası təşkil olunmuş sistemlərlə, səsyüksəkliyinin stabil, qanunlaşmış formaları ilə bağlıdır. Funksiya – hissə-nin tamlığa, bütün sistemə münasibəti deməkdir. Bundan əlavə məhz funksionallığın mövcud olması sistemin yaşamasını təmin edir. Əlavə edək ki, hissənin təşkil olunmuş sistemdə tamlığa münasibəti məqsədyönlü xüsusiyyətə

malikdir. Bu da funksionallıq deməkdir. Beləliklə, bizim üçün diatonikanın, bütün təzahürləri ilə bərabər tipoloji olması, bütünlükdə musiqi sisteminin qorunması və onun mövcud olması ücün əlverişli şəraitin yaranması çox vacibdir.

Bəs funksionallıq kimi, belə demək olarsa «təbii» təzahürün universallıq anlamının əsas mahiyyəti nədən ibarətdir? Yaxşı məlumdur ki, motiv funksionallığı, 3 hərəkət növünə malikdir – meylin yaranması, meylin həlli, afunksional gediş. Burada funksionallığın daha bir hərəkət növünü yada salaq – meylə üstün gəlmə. Meylin istiqaməti, onun intensivliyi, bu intensivliyin müqayisəsi, azərbaycan xalq musiqisinin bədii əlaqələrinin tarixi sualını verməyə səbəb olur. Qavrama inersiyasının hər hansı növ pozulması, uzatma, musiqidə həllin dəf edilməsi, musiqi mətninin dinamikləşməsinə, inkişaf prosesinin aktivləşməsinə gətirib çıxara bilər. Şərq lad sistemində yalnız səssırasının deyil, həm də ona qoşulmuş amillərin eyniliyi, eləcə də bu amillərin intensivliyi onların funksional qohumluğuna dəlalət edir.

Hər bir akustik nəzəriyyə müəyyən qədər sxolastikaya malikdir. Belə ki, eşitmə qavrayışına və yaxud da dinləyicinin şüurunda baş verən vacib proseslərə yetərincə əhəmiyyət verilmir. Onlar aşağıdakılarla təyin olunurlar:

- funksiya – elementin, sistemdə hərəkət tərzi;
- funksionallıq – musiqi sisteminin öz elementləri arasında qanuni əlaqələrin qurulması xüsusiyyəti;
- funksionallıq – şüurda meyillik təəsüratı yaratmaq bacarığı;
- formanın funksionallığı – forma tipinin qavranmasına yanaşmanın yaranması;
- funksionallıq – musiqi quruluşunun dinamik amili;
- funksionallıq – «funksionallığın təbiəti, musiqi qavranmasının psixoloji mexanizminin yaradıcı hissəsi kimi» [13]

Bəs ərəb müsəlman mədəniyyətinin diatonik sisteminin hansı elementlərini funksiya saymaq olar? Çünki verilən sistemdə hər hansı bir elementin, hər hansı bir gördüyü iş, hər zaman funksiya olmur. Bizim fikrimizcə, bu məfhum məhz diatonik rast ladı modelidir.

Rast ladının «bütün makamların anası» olması fikrinin təsdiqini biz Orta əsr Şərq alimlərinin – əsərlərində görürük. Rast ladı özünün əsas

---

[13] Милка А. Теоретические основы функциональности в музыке. - Ленинград: Музыка, 1982. - 149 с.

cəhətlərinin xüsusi stabilliyinə malikdir. Belə ki, «Rast» həm öz adını, həm səssırasının quruluşunu, həm də tonika yüksəkliyini qoruyub saxlaya bilmişdir. «Rast» yeganə muğamdır ki, zamanın və hadisələrin amansız təsirinə məruz qalmayıb» [14]

Funksional diatonika «sahəsinin» tetraxord daxilində formalaşması, azərbaycan xalq musiqisinin ladtonal sisteminin müəyyənləşməsində həlledici əhəmiyyət kəsb edirdi. Məhz diatonik tetraxord, ladintonasiya hərəkətinin istinad və çıxış nöqtəsi oldu.

Əlbəttə ki, kvarta və kvinta əsaslı ladların yaranması və yaşaması qəliz prosesdir. Biz yalnız, uyğun misal və təhlillərin göstərilməsi ilə məhdudlaşdıq. Bunun səbəbi yalnız dissertasiya çərçivəsinə sığmamamız deyil həm də, azərbaycan musiqisində belə müqayisəli təhlil metodikasının ilk dəfə istifadə olunmasıdır.

Bir daha qeyd edək, əğər Yaxın və Orta Şərq musiqi mədəniyyət-lərinin ümumiliyini, xüsusən, ərəb-müsəlman mədəniyyətinin Xəlifət dövrünü nəzərə alsaq, bu səmtdə bizim tədqiqatımız məqsədəuyğun və qanunauyğundur. Məhz o dövrdə şifahi ənənəli professional musiqi mədəniyyəti formalaşmışdır. Onun əsası sentetiklik olmuşdur, bu da lad sahəsində özünü daha parlaq büruzə vermişdir. Sözsüz ki, fərqli cəhətləri də çox olmuşdur, lakin bənzər cizgiləri daha önəmli idi. Makomat sənəti ərəb-müsəlman Şərqində möhkəm yer tutaraq, yaxın ölkələrə böyük təsir edirdi. Lad-səssırası quruluşlarının, ladintonasiya quruluşlarının rolu aparıcı idi. Konkret instrumental təcrübə vasitəsi ilə aprobasiya olunan lad strukturları, lad nəzəri sistemində möhkəm yer tutmuşlar. Bu prosesdə Azərbaycan musiqisinin diatonik əsası kimi, nəzəri sistemdə rast adlanan lad strukturu xüsusi əhəmiyyət kəsb edir.

**VI fəsil "Azərbaycan xalq musiqisinin, incəsənətinin digər növləri ilə qarşılıqlı əlaqələri"** adlanır.

Bu fəsildə biz, Azərbaycan xalq musiqisinin bədii əlaqələrinin müəyyən aspektinin açıqlanmasını – incəsənət növləri arasında bədii əlaqələrin tədqiqi məsələsini qarşımıza məqsəd qoymuşuq. Burada metodoloji əsas, ümumi funksional tərkibin, yəni musiqinin və dekorativ tətbiqi incəsənətin struktur universallığını araşdırıb meydana çıxartmaqdır.

[14] Hacıbəyov Ü.Ə. Azərbaycan xalq musiqisinin əsasları. Bakı.Yazıçı. 1985

Fəsildəki müqayisəli təhlilin əsas məqsədi Azərbaycan incəsənətinin universallığını təyin etmək və bu universallıqların Azərbaycan xalq musiqisində icrasını izləməkdir.

Azərbaycan incəsənətinin (musiqi, dekorativ-tədbiqi, təsviri incəsənətin) ümumi funksional əlaqələrini araşdıraraq, oxucuya konkret növlərin təhlilini deyil, ümumiləşmiş, inteqrasiya olunmuş strukturu təqdim etmək istəyirik. Fikrimizcə, əsas məsələ odur ki, ümumiləşdirilmiş nisbət, Azərbaycan incəsənətinin milli kodlaşmasının genezisini açıqlayır.

Bu fəsildə qarşılıqlı əlaqələrin əsas tədqiqini biz Şərq mədəniyyətinin universallığının açıqlanması yönündə aparacağıq.

Oxşar mənəvi modellərin, struktur tiplərinin axtarışı, mədəniyyətin xüsusiyyətlərini açmaqla yanaşı, həmçinin Azərbaycan incəsənətinin şərq mədəniyyəti xəzinəsinə bəxş etdiyi parlaq quruluşların dəqiqləşdirilməsini də təmin edər.

Beləliklə, Azərbaycan musiqisinin bədii əlaqələrinin təhlilini, incəsənətin əlaqələri səviyyəsində, yəni incəsənətin müxtəlif növləri arasında struktur eyniliyinin tədqiqi kimi aparırıq.

Sözsüz ki, Azərbaycan incəsənətinin universal xüsusiyyətləri, insan varlığının, insan psixologiyasının iki nəhəng başlanğıca sədaqətindən doğan amillərə bağlıdır. Bunlar – kanon və improvizasiyadır. Daha sonra bu prosesləri konkretləşdirmək üçün biz, bir tərəfdən tip, formula, klişe, invariant digər tərəfdən isə variantlıq kimi terminlərdən istifadə edəcəyik. Məhz bu başlanğıc məfhumlar xalq musiqisinin bədii əlaqələrindən və bu zəmində Azərbaycan incəsənətinin ümumiliyindən danışmağa imkan verir.

Şifahi ənənəli Azərbaycan musiqisinin bədii əlaqələri müxtəlif səviyyələrdə həyata keçirilir. Bu qarşılıqlı əlaqə səviyyələrini açıqlamaq üçün bir deyil, bir neçə elmi iş yazmaq lazım ola bilərdi. Ona görə də bu fəsildə biz, yalnız bir, incəsənətin yaradıcı, həyatverici prinsipi olan invariant prinsipində diqqətimizi cəmləşdirəcəyik.

Struktur qəlibi variantlıqla əlaqəli olduğundan təbii ifadə edilir. Çeviklik, variant və invariantın inkişafı xalq üslubunun ümumi sistemi səviyyəsində həyata keçir. Başqa sözlə ifadə etsək, zamanla təsdiqlənmiş, yəni uzun tarixi inkişaf keçmiş incəsənətin tipologiyası incəsənətin müxtəlif növlərində öz struktur mənasına görə bir-birinə olduqca yaxındır.

İnvariant ideyası, inkişafın ümumiləşdirici bəndi kimi, həm Azərbaycan musiqi folklorunda, həm şifahi ənənəli musiqidə həm də tətbiqi incəsənətdə mövcuddur.

Azərbaycan xalq musiqisini iki əsas əlamət fərqləndirir – ladtonal kanonu və melodik variantlıq.

Hər bir invariant sisteminin təməlində təkrar durur. Təkrar və variantlıq inkşaf prossesinin əsas qanunlarındandır. Belə ki, folklorda dəyişkənlik ənənəvi sabitlik sayəsində mövcuddur.

Təkrar insanın həyat fəaliyyətinin əsas əlamətlərindən olduğuna görə dərin köklərə malikdir. Dünyagörüşü, tarixi yaddaş təkrarın sayəsində yenidən hasil olunur. Variantlıq və təkrar – incəsənətin əsas bədii və struktur prinsiplərindən olub, onun ümumi funksional başlanğıcının daşıyıcılarıdır. Hər dövr hər bir region bu prinsipləri özü istədiyi kimi istifadə edirdi. Biz də tədqiqat işimizdə yaxın şərq regionunda dayanmaq istərdik.

Bu fəsildə tədqiqatın bir neçə bəndlərini qeyd edək:

1. Tipoloji model bir sıra variantlar yaradır;
2. Modelin xüsusiyyətləri, onun potensial imkanları;
3. Modelin variant dəyişməsinin spesifikliyi.

Musiqi və dekorativ tətbiqi incəsənətin əlaqələrinin tədqiqini, hər iki növ incəsənətdə fəaliyyəti mümkün olan modellərin axtarışı istiqamətində aparmağı məqsədəuyğun sayırıq. Daha doğrusu, milli özünəməxsusluğu əks etdirə bilən modellər nəzərdə tutulur.

Müxtəlif incəsənət növlərinin səviyyəsində modellərin variantlığını, aberrasiya prinsipi kimi təyin etmək olardı. Axı model öz əsasına görə eynidir, lakin onun yönəlməsi lokal fərqləri realizə edir. Model tez-tez motivlə oxşar olur. Motiv – musiqi fikrinin kiçik hissəsidir. O, məna (ifadə) və quruluş, struktur vahidinə malikdir (L.Mazel, B.Tsukkerman). Motivlər – intonasiya dövriyələri, xüsusi ifadə əhəmiyyəti kəsb edirlər və mövzuya xarakter cizgilər gətirirlər (Y.Tyulin).

Burada biz variantlığın fəaliyyəti problemini bir neçə aspektdə araşdırırıq:

1. Variantlığın genetik əsasının yaranması;
2. Variantlığın məzmun təməli;
3. Müqayisə edərək biz praktiki olaraq təzahür formalarının regional müxtəlifliyini açıqlayırıq;
4. Azərbaycan və türk musiqisində konkret janrlar arasında əlaqə;
5. Musiqi dili.

Qeyd edək ki, təkrarlığa hər bir xalqın musiqi folklorunda rast gəlinir. Ancaq bu xüsusiyyət bu və ya digər musiqi sintetik strukturun

istifadəsi faktında özünü onun funksional əsaslarında olduğu qədər göstərmir. Beləliklə;

1. Vahid məzmunun çoxşaxəli təcəssümü;
2. Çoxluğun bərabərhüquqluğu;
3. Kontekstin ciddi ölçülərdə yeniləşməsi;
4. Bərabərmənalı elementlərin dəyişilməsi zamanı tamlığın saxlanılması.

Bütün əvvəldə dediklərimiz, Azərbaycan xalq musiqisinin struktur əsasları ilə, dekorativ tətbiqi incəsənətin müqayisəli təhlilinin musiqi tipoloqiyalarının tədqiqi əsassıda aparılması ilə təsdiqlənir.

Dekorativ-tətbiqi incəsənətin ornamentliliyi və Azərbaycan xalq musiqisinin variantlılığı iki sənətin bərabər yaşamasını, sintezini göstərir. Burada – məntiqlik, intizam, sxematizm, improvizasiya, dinamik hərəkət, sonsuzluq yer alır. İlk element hərəkətin vahidi olur. Ornamentin yüksəkliyi dinamizmi yaradan daxili keyfiyyəti özündə əks edir.

Bilindiyi kimi, hər hansı bir ornament iki birləşmədən ibarətdir.

1. Əsas motivin təkrarını əmələ gətirən düzən;
2.Özək mərkəzin ətrafında əmələ ğələn dəqiq geraldik kompozisiya.

Burada dediklərimizə əsaslanaraq qeyd etməliyik ki, təkrar, musiqidə olduğu kimi, burada da yeknəsəkliyi təqdim etmir, əksinə rəngarənglik, inkşaf gətirən bir amildir. Əsas qəlib və onu realizə edən motiv, element, onların arasındakı əlaqə, qarşılaşma həlledici rol oynayır. Bu baxımdan dekorativ tətbiqi incəsənətin və musiqi-artefaktın məkanca müvəqqəti mövcudluğunu söyləmək qanunauyğun olardı. Qeyd edək ki, xalqın şüurunda zaman məfhumu silsilə kimi qəbul edilir, ona görə də, zaman nəhayətsizdir.

Ornamentin məğzini əks etdirən, onu struktur yaradan bir başlanğıc kimi göstərən əsas xüsusiyyət, müxtəlif ornament şəkillərinin qarşılıqlı əlaqələri və sintezidir. Bu xüsusiyyətlər sırasında yeni quruluşlar yaratmağa malik ritmik hərəkətin dəyişkənliyi, ornament elementlərinin ciddi iyerarxiyası, ornament-ritmik birləşmənin müxtəlifliyi, ornament elementinin tabelikdən çıxıb, aparıcıya çevrilməsi-bütün bu dediklərimiz ornamentin məğzini əks etdirərək, onu quruluş yaradan başlanğıc kimi əks etdirir.

Musiqi və dekorativ-tətbiqi incəsənətdə variantlığın bir universal prinsip kimi qəbul olunması, bu incəsənətlərin qarşılıqlı əlaqələrində yalnız məna və quruluş xüsusiyyətlərini açıqlamır, eyni zamanda onların

tarixi aspektdən də inkişafını əks etdirir. Bu fikrin üzərində bir qədər dayanaq.

Formula bir mövcud tipik element kimi sistem yaradır. Başqa sistemlərin özünə bənzər elementləri ilə sistemin bir hissəsi kimi tamlaşır, bərabərləşir, onlarla bağlantı qurur. Azərbaycan musiqisinin qarşılıqlı növləri arasındakı birlik "mexanizmi" belə yaranır.

Folklorun üslubunun yaranmasında motivin məzmun və konstruktiv rolu prinsipial məna kəsb edir. Motivin hər hansı bir yanaşma və nəzəriyyəsi, və yaxud onun hər hansı bir interpterasiyası motiv məfhumu altında formulanı nəzərdə tutur. Onun əsas səciyyəvi cəhəti, sadəlikdən yaranmış bir vahid - yəni sxematizm, qəliblik, eynicinslik, eyniüzvlük kimi qavranılır. Bu, əsas etibarilə müxtəlif bədii sferaların – yəni, etnik qruplar arası, millətlər arası növlərarası bədii sferaların bir-birinə bənzərliyidir.

Dediklərimizi ümumiləşdirərək, invariantın məntiqi musiqidə də dekorativ-tətbiqi incəsənətdə də oxşar və danılmazdır. Əsas motiv müəyyən mənada həm bütöv tam ilə, həm də digər motivlər ilə qarşılaşa bilər. Beləliklə, bir neçə motivlərin qarşılaşma dərəcəsi müəyyənləşir. Yalnız motivlərin funksional tabeliyi ilə şərtlənən inkişaf nəticəsində invariant yaranır.

Azərbaycan incəsənətinin önəmli prinsipi, vahid nüvədən yaranma prinsipidir. Motiv, istər musiqi olsun, istərsə dekorativ olsun inkişaf edərək vahid bir tama çevrilir. Təbiidir ki, əgər özək nüvə müəyyən özünəməxsus xüsusiyyətlərə malikdirsə, inkişaf edərək daha iri quruluşa, struktura çevrilir və yeni keyfiyyətlər qazanır. Bununla yanaşı, unutmayaq ki, verilmiş başlanğıc motiv, üslubun, quruluşun bir invariantı kimi ümumiləşmişdir və inkişaf etdikcə yenə də ümumiləşir. Azərbaycan musiqisinin və ornamentinin çoxcəhətliliyi iyerarxiyası bunu bir daha sübut edir.

Azərbaycan musiqisini teksturanın çoxlaylılığı fərqləndirir.

1. Kamil, sabit funksional əhəmiyyətli səslər, çoxlaylılığın ilk layını təşkil edir;

2. Hər bir istinad pərdə ətrafında gəzişmə ladintonasiya quruluşunu müəyyənləşdirir;

3. Ornamental gəzişmələr, səslər arasında boşluğu doldurma ritm-intonasiya dolğunluğu ilə fərqlənərək tam, bütöv ornamental mənzərəni tamamlayır.

Bu çoxlaylılıq xüsusiyyəti xalça incəsənətini də fərqləndirir. Azərbaycan xalçalarında belə müəyyənliyin geniş miqyaslı həlli olduqca dinamikdir.

Maraqlıdır ki, Azərbaycan xalq musiqisində - yəni hətta parlaq, dinamik ladintonasiya münasibətləri zamanı da üfüqi konflikt ("cizgi" oxu) və motiv ("ornament fiqur" oxu) arasında eyni kontrast yaranır. Deyə bilərəm ki, şaqulilik Azərbaycan xalq musiqisində xüsusi yer tutur – bu motivin istinad səsini önə çəkir. Ornamentdə isə, mən deyərdim ki, ornamentin yayğınlığı, sonsuzluğun dərinliyinə getməsi hiss olunur. Burada daha bir xüsusiyyəti – üfüqiliyin mükəmməlliyinin, əsas mahiyyət kəsb etməsini və şaquliliyin (sözsüz məcazi şaqulilik) ona tabe olmasını, eyni zamanda şaquli istiqamətin sərbəst variantlığını qeyd edə bilərik .

Beləliklə, mətn bir sıra hərəkətli laylardan əmələ gəlir və o da əsas funksiyanı icra edir, digərləri isə - inkişafedici funksiya daşıyır.

Bu fəsildə əsas formayaradıcı amilləri müqayisə edək. Formanın struktur səviyyələrini ardıcıllıqla aşağıdakı sıraya düzək:

1. Başlanğıc ladintonasiya modeli;
2. Ekspozisiya xarakterli melodik ibarə;.
3. Cümlə;
4. Bir musiqi "abzasının" struktur tamlığı ilə müvafiq təkrarı.

İndi isə bu sıranı variant inkişaf prinsipi ilə artıraq. Variant inkişafın imkanlarının bir neçəsi Azərbaycan musiqisi ilə və dekorativ-tətbiqi incəsənət ilə oxşardır.

- elementlərin yerdəyişməsi;
- elementlərin birləşməsi;
- əvəzləmə variantı;
- çoxalma, artma;
- variant zəncirlər.

Daha sonra:

- ekspozisiya variantlığı (qarşıqoyma);
- orta;
- tamamlayıcı.

Və nəhayət sonuncu zəncir;

- vahiddən – müxtəlifliyə variasiya etmək;
- müxtəliflikdən vahidə;
- ümumi dəyişkənlik.

Azərbaycan xalq musiqisinin incəsənətin digər növləri ilə əlaqələri bizim tərəfimizdən, əvvəlcədən də deyildiyi kimi, invariant, stereotip və

onun sonsuz modifikasiyaları kimi əsaslandırılır. Bununla yanaşı, bu aspekt yalnız struktur deyil, həm də obraz-məna aspektidir.

Məlumdur ki, Yaxın Şərq regionunun bir hissəsi olan Azərbaycanın xalq musiqisinə obraz assosiasiyası spesifikliyi xasdır. Qanunlaşmış, təsdiqlənmiş bədii obrazlar və simvollar bir-biri ilə sıx bağlıdır. Onlar zaman incəsənəti olan musiqi şüurunun məkan incəsənətləri ilə, məsələn tətbiqi dekorativ incəsənətlə deyərdim ki, sərt qarşılıqlı tabeçilik əlaqəsini yaradırlar. Burada, musiqinin dəqiq kosmoloji xasiyyətli əlaqələrini əks etdirən musiqi və fəlsəfi elmi əsərləri yada sala bilərik; Ü.Hacıbəylinin Azərbaycan ladları haqqında yazdığı elmi əsəri, musiqinin təbiət hadisələrinə təsiri və s. Bununla Azərbaycan xalq musiqisinin dərinliyi və sonsuzluğu yaranır və yaşayır.

**Nəticə** bölməsində dissertasiyada irəli sürülən fikirlərin məntiqi yekunu təqdim olunur. Göstərilir ki, şifahi ənənəli Azərbaycan musiqisi ona daxil olan bir çox elementləri ilə birlikdə ierarxik yaranmış sistemdir.

Mürəkkəbliyi, birmənalı olmaması, çoxşaxəliliyi Azərbaycan xalq musiqisini tarixi baxımdan, onun etnoqenezi baxımından, strukturu və daxili məndəricəsi baxımından araşdırmağa imkan yaradır.

Təqdim olunmuş tədqiqatda müəyyən etdiyimiz aspektləp mərhələ-mərhələ araşdırılaraq aşağıdakıları açıqlamağa imkan verir.

1. Şifahi ənənəli Azərbaycan musiqisinin millətlərarası bədii əlaqələri;

2. Şifahi ənənəli Azərbaycan musiqisinin janrlararası əlaqələri;

3. Musiqi mədəniyyəti və dekorativ tədbiqi incəsənət arasında növlərarası bədii əlaqələr.

Məhz bu əlaqələrin növləri bir neçə səbəblərdən seçilmişdir.

1. Dissertasiyada ifadə edilmiş konsepsiya Azərbaycan etnomusiqişünaslığında ilk dəfə olaraq təqdim olunmuşdur. Bir tərəfdən milli musiqi mədəniyyətinin spesifikliyinə, digər tərəfdən onun bədii mədəniyyət kontekstində başqa əlaqələrinə istinad edən konsepsiya, Azərbaycan xalq musiqisinin yeni, bu vaxta qədər araşdırılmayan tərəflərini açıqlamağa şərait yaradır;

2. Janrlararası təhlil, janrların morfologiyasını kokretləşdirir. Onun strukturlarını, musiqi dilinin özünəməxsusluğunu, daxili məzmununu dəqiqləşdirir. Bundan əlavə tədqiqat zamanı ərsəyə çıxan Azərbaycan xalq musiqisinin universallığı, Azərbaycan musiqisinin sivil xüsusiyyətlərindən danışmağa, onu dünya miqyaslı fenomen səviyyəsinə qaldırmağa imkan yaradır;

3. Dissertasiya işində konkret təhlillərlə Azərbaycan incəsənətinin bütövlüyü, tamlığı göstərilir. Bu da Azərbaycan xalq musiqisinin digər incəsənət növləri arasında əlaqələrini təhlil etmək nəticəsində mümkün oldu. Belə ki, tədqiqatda xalqın bədii mentallığının kökündə olan semantik və funksional başlanğıc arqumentləşdirilir.

Tədqiqat işinin bütün axtarışlarının təməlində invariantlıq, formulluq anlayışı durur.

1. Dissertasiya işində Azərbaycan xalq musiqisinin üç səviyyədə fəaliyyət göstərən bütöv funksional tərkibinin vacib komponentləri açıqlandı.

- Millətlərarası əlaqələr;
- Janrlararası əlaqələr;
- İncəsənətin növləri arasında əlaqələr.

Beləliklə, Azərbaycan mədəniyyətinin təməlində duran bir çox mədəni təzahürlərin sinxron sxemi yaranmışdır. Bu sxem Azərbaycan mənəviyyatını birləşdirir, onun sivil özünəməxsusluğunu milli məna ilə zənginləşdirir.

2. Dissertasiyada formullu sxemlər təyin edilib. Onlar haqqında fikir yürütmək, Azərbaycan estetik şüurunun xüsusiyyətlərini araşdırmağa, imkan yaradırlar. Dissertasiyada Azərbaycan xalq musiqisinin mərhələli inkişafı, onun bədii əlaqələri ilə sıx bağlı şəkildə izah edilir. Beləliklə, biz mədəniyyətin potensialı haqqında fikir yürütmək, gələcəkdə onun təkamül mərhələlərini təhlil etmək imkanı qazanırıq.

3. Əhəmiyyətli məsələlərdən olan təsnifat parametrinin irəli sürülməsi və arqumentləşdirilməsi problemidir. Azərbaycan xalq musiqisini parametrlərinə görə fərqləndirmək, özü özlüyündə yeni təsnifat sistemini yaradır. Birincisi, bu sistem çərçivəsində xalq musiqisinin şərhi məlum xüsusiyyətləri yenidən gözdən keçirməyə imkan verir. İkincisi isə yeni cizgilərin açıqlamasına imkan yaradır. Məsələn, diotonik sistemin mühüm assimilyasiya prosesi kimi yaranma yolunu göstərmək, Azərbaycan xalq musiqisinin kontekst xüsusiyyətlərini açıqlamaq və s.

Hər bir sistemin vəhdəti təmin edən vasitələrə ehtiyacı var. Azərbaycan xalq incəsənətinin vəhdəti çoxsəviyyəlidir. Burada biz yaranma və təkamül amillərini qeyd etməliyik, əlbəttə bununla yanaşı mürəkkəb bir sual olan onun müasir fəaliyyətini də nəzərə almalıyıq.

İncəsənətin hər bir növü öz hakim dəlillərinə, formullara malikdir. İncəsənətlərin əlaqələrini təmin edən formullar Azərbaycan mədəniyyətinin birliyini təmin edir.

Azərbaycan xalq musiqisinin bədii əlaqələrini, modellər, formullar səviyyəsində öyrənilməsi, sabit və stabil sütunlar üzərində tədqiqi, Azərbaycan incəsənət sisteminin birliyini və onların milli orijinallığını arqumentləşdirməyə imkan verir.

Formulluğun sabitləşmə mexanizmi çox genişdir. Hər bir elementinin bir – biriylə bağlı olan vahid formulun mövcud olması artıq müəyyən sabitliyi təmin edir.

Dissertasiya işi həm konkret analitik, həm də ümumiləşdirici xarakter daşıyır. Məhz buna görə də, bir neçə problemli səviyyələrdə həyata keçirilən formulluğun təhlili, bir tərəfdən onun yeni yönlərini, fəaliyyətinin yeni aspektlərini üzə çıxarır, digər tərəfdən təhlil parametrlərini ümumiləşdirir.

Qarşıya qoyduğumuz, konkret məqsədimiz, Şifahi ənənəli Azərbaycan musiqisinin bədii əlaqələrini açıqlamaq olduğundan biz ilk növbədə Azərbaycan musiqisinin çoxşaxəli olduğunu qeyd etməyə çalışırıq. Azərbaycan xalq musiqisi Azərbaycan mədəniyyətinin tamlığı ilə qırılmaz tellərlə bağlı olan mürəkkəb, çoxcəhətli birlikdir. Azərbaycan bədii mədəniyyətinin inkişafını, regional inkişaf kontekstindən kənarda təsəvvür etmək olmaz. Məhz sistemlilik, birlik, bədii mədəniyyətin vəhdəti funksional və struktur təməllərin cəmi, Azərbaycan milli musiqi mədəniyyətinin monolitliyinin yaranmasına gətirib çıxarmışdır.

**Dissertasiyanın məzmununa uyğun olaraq müəllifin aşağıdakı elmi məqalələri çap olunmuşdur:**

1. Bir tarixi sənəd haqqında. // «İncəsənət və mədəniyyət problemləri toplu. Azərbaycan Milli Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutu. № 4 (22). Bakı, 2007, s. 173-179

2. Azərbaycan xalq musiqisinin milli özünəməxsusluğunun tədqiqinə dair. // «Musiqi dünyası» jurnalı № 1, 2/35-2008, s. 139-141

3. Azərbaycan xalq musiqisi janrlarının qarşılıqlı əlaqələri barədə mühazirələr. // «Musiqi dünyası» jurnalı № 3-4/37-2008, s. 95-96

4. Azərbaycan xalq musiqisi janrlarının spesifik əlamətləri. // «Musiqi dünyası» jurnalı № 3-4/41-2009, s. 121-122

5. «Rast» modeli şərq musiqi mədəniyyyətinin diatonik əsası kimi. / «Muğam aləmi» beynəlxalq elmi simpozium materialları. Bakı, 2009, s. 355-360

6. Специфические признаки Азербайджанской обрядовой музыки. // «Harmony» - международный музыкальный культурологический журнал. Выпуск № 8, 2009 http://harmony.musigidunya.az/RUS/archivereader.asp?txtid=375&s=1&iss=20

7. Aşıq sənətinin spesifik əlamətləri haqqında. //«Musiqi dünyası» jurnalı № 4/45-2010, s. 173-175

8. Azərbaycan xalq mahnı və rəqslərinin spesifik əlamətləri. // «Təsviri və dekorativ tətbiqi sənət məsələləri» jurnalı. № 2 (8), 2011, s. 54-58

9. Межвидовые связи Азербайджанской музыки. // «Поиск» научный журнал. Казахстан, № 1, 2012, s. 93-98

10. Azərbaycan musiqisinin lad modelləri. // "Bilimsel Eksen" Beynəlxalq jurnal. Türkiyə, № :6, 2012, s. 86-91

11. Mərasim mədəniyyəti. / III Beynəlxalq elmi konfrans. Bakı Slavyan Universiteti. 2012, s. 546-548

12. Bir daha diatonika haqda. // «Konservatoriya» jurnalı. № 1 (15), 2012, s. 5-8

13. Muğam sənətinin spesifik əlamətlərinə dair. // Elmi əsərlər. ADMİU. № 13, 2012, s. 104-108

14. Azərbaycan xalq musiqisinin variant təbiəti haqqında. // «Musiqi dünyası» jurnalı № 2/51-2012, s. 98-100

15. Обобщающие универсалии жанров Азербайджанской народной музыки. // "İdil" Sanat ve dil dergisi. Cilt 1, № 5, 2012, Türkiyə-Ankara http://idildergisi.com\arsiv.php

16. Azərbaycan xalq musiqisinin janr sisteminin struktur ümumiləşdirici universallığı. // «Mədəniyyət dünyası» jurnalı. XXV, 2013, s. 224-228

17. Azərbaycan xalq musiqisində intonasiyanın melodik tipləri. // «Mədəniyyət dünyası» jurnalı. XXVI, 2013, s. 174-178

18. Azərbaycan janr sisteminin universal parametri olan ritmintonasiya haqqında. / «Türksoylu xalqların musiqi mədəniyyətinin tədbiqi problemləri». XII Beynəlxalq elmi praktiki konfrans. 2013, s. 35-37

19. Ü.Hacıbəyov və xalq musiqisi. // «Mədəni-maarif» jurnalı. № 3, 2006, s. 4-6

20. Azerbaycan halk müzik türleri ve onların Azerbaycan eğitimindeki yeri. / Uluslararası Eğitimde değişim ve yeni yönelimler sempozyumu. Nisan 22-24, 2013, Türkiyə-Konya, Proqram

21. Об художественных связях Азербайджанской народной музыки. // "İdil" Sanat ve dil dergisi. Cilt 1, 2012, Türkiyə-Ankara

22. Rus musiqişünasları, xalq musiqisinin tədqiqinə dair.// «Təsviri və dekorativ tətbiqi sənət məsələləri» jurnalı. № 1 (13), 2014, s. 83-88

23. Musiqi janrlarının qarşılıqlı əlaqəsi kontekstində meyxana və rep. // "Musiqi dünyası" jurnalı.№1/58,2014,s.52-54

24. Об изучении художественных связей Азербайджанской народной музыки. // Ulakbilge Sosial bilimler dergisi. Cilt 2, sayı 4, Güz 2014, Türkiyə-Ankara

25. Azərbaycan xalq musiqisi ilə dekorativ tətbiqi incəsənətin qarşılıqlı əlaqələri. Konservatoriya jurnalı 2(24) səh. 65-67.

26. Azerbaijani Mugam.// *Bloomsbury Encyclopedia of Popular Music of the World.* Volume 10, 'Genres: Middle East and North Africa.USA.State of Massachusetts.

27. Azərbaycan xalq musiqisi bədii mədəniyyət kontekstində. Bakı, Mütərcim, 2013, 242 səh.

**Айтач Эльхан гызы Рагимова**

# МЕЖЖАНРОВЫЕ И ХУДОЖЕСТВЕННЫЕ СВЯЗИ В АЗЕРБАЙДЖАНСКОЙ МУЗЫКЕ УСТНОЙ ТРАДИЦИИ

## РЕЗЮМЕ

В диссертации посвященной художественным связям народной музыки, в контексте художественной культуры освещены определенные аспекты.

Об обобщающих и специфических универсалиях азербайджанской народной музыки, о модели «Раст» как межрегиональной основе ладовой системы, о теоретических аспектах межжанровых взаимосвязей азербайджанской народной музыки. И, наконец, сравнительному анализу образцов азербайджанской народной музыки.

Отмечается, что азербайджанская народная музыка – это иерархически сложившаяся система, со многими входящими в нее элементами. Сложность, неоднозначность, многоуровневость ее позволяет рассматривать азербайджанскую народную музыку и с точки зрения ее истории, и с точки зрения ее этногенеза, и с точки зрения ее внутренних содержательных и структурных слагаемых.

Принятые нами в данном исследовании аспекты поэтапно призваны раскрыть

1. Межнациональные художественные связи азербайджанской народной музыки:
2. Межжанровые взаимосвязи народной музыки:
3. Межвидовые художественные связи между музыкальным искусством и декоративно-прикладным искусством.

В диссертации раскрыты важные слагаемые единого функционального содержания азербайджанской народной музыки, функционирующие на трех уровнях:

- межнациональных связей;
- межжанровых связей;
- межвидовых связей;

Таким образом, воссоздана синхронная схема, лежащая и основе многих культурных явлений азербайджанской культуры. Эта схема объединяет азербайджанскую духовность, наполняет ее национальным смыслом, цивилизационной самодостаточностью.

**Aytaj Elkhan Rahimova**

# GENRE AND ARTISTIC RELATIONS IN VERBAL TRADITION OF AZERBAIJANI MUSIC

## SUMMARY

Certain aspects are elucidated in the dissertation dedicated to the sally of Azerbaijani folk music in the context of artistic culture:

Generalizing and specific universals of Azerbaijani folk music; model "Rast" being interregional foundation of tonal system; theoretical aspects of inter-genre relarelationas of Azerbaijani folk music, and comperative analysis of pattems of Azerbaijani folk music at last.

It is mentioned that Azerbaijani folk music is hierarchically established system with a lot of elements in it. Its complexity, ambiguity, multiple-level system allow to examine Azerbaijani folk music both in names of its history, and in terms of its ethno genesis, and in terms of its internal substantial and structural components.

Aspects adopted by us in this research are called to elucidate followings step by step:

1. International artistic relations of Azerbaijani folk music;
2. Inter-genre relations of folk music;
3. Interspecies artistic connection between musical art and decorative and applied arts.

Significant components of integrated functional content of Azerbaijani folk music, functioning on three levels are exposed;

- international relations;
- inter-genre relations;
- interspecies relations

There by synchronic scheme compiling a lot of cultural happenings of Azerbaijani culture is revealed. This scheme integrates Azerbaijani specialty, fills it wits national sense, civilization self-sufficiency.

Çapa imzalanıb: 26.11.2014.
Format: 60x84 1/16. Tiraj: 100.

«Mütərcim» Nəşriyyat – Poliqrafiya mərkəzi
Bakı, Rəsul Rza küç., 125
tel./faks 596 21 44
e-mail: mutarjim@mail.ru

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**БАКИНСКАЯ МУЗЫКАЛЬНАЯ АКАДЕМИЯ
им. УЗЕИРА ГАДЖИБЕЙЛИ**

***На правах рукописи***

**Айтач Эльхан гызы Рагимова**

# МЕЖЖАНРОВЫЕ И ХУДОЖЕСТВЕННЫЕ СВЯЗИ В АЗЕРБАЙДЖАНСКОЙ МУЗЫКЕ УСТНОЙ ТРАДИЦИИ

**6213.01 – Музыкальное искусство**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени
доктора наук по искусствоведению**

**БАКУ – 2015**